# AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ BANKI

# NATIONAL BANK OF AZERBAIJAN REPUBLIC



İLLİK HESABAT **2001** ANNUAL REPORT

# M Ü N D Ə R İ C A T


**Giriş** . . . . . **4**

**1. Azərbaycanda sosial-iqtisadi vəziyyət**
1.1. Real sektor . . . . . 6
1.2. Tədiyyə balansı . . . . . 12
1.3. Dünya iqtisadiyyatı və beynəlxalq maliyyə bazarları . . . . . 24

**2. Pul-kredit siyasəti. Məqsədlər, yekunlar**
2.1. 2001-ci il Pul-kredit siyasətinin məqsədləri və yekunları . . . . . 26
2.2. Pul-kredit siyasətinin tənzimləmə alətləri . . . . . 32
2.3. Valyuta siyasəti və qızıl-valyuta ehtiyatlarının idarə olunması . . . . . 34
2.4. Maliyyə bazarlarının inkişafı . . . . . 42

**3. Bank islahatları**
3.1. Bank sistemi yeni inkişaf mərhələsində . . . . . 48
3.2. Bank nəzarəti beynəlxalq standartlara uyğunlaşdırılır . . . . . 54

**4. Ödəniş sisteminin vəziyyəti və nağd pul dövriyyəsinin təşkili**
4.1. Elektron ödəniş sisteminin tətbiqi genişlənir . . . . . 60
4.2. Nağd pul təsərrüfatı təzələnir . . . . . 64

**5. Bank qanunvericiliyinin inkişafı** . . . . . **68**

**6. İnsan resurslarının inkişafı** . . . . . **76**

**7. Milli Bank üzrə strateji planlaşdırmanın birinci ilinin yekunları** . . . . . **80**

**8. Milli Bankın beynəlxalq əlaqələri**
8.1. Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq . . . . . 84
8.2. Xarici ölkələrin mərkəzi bankları ilə əməkdaşlıq . . . . . 86

**9. Milli Bankda daxili audit** . . . . . **88**

**10. Milli Bankın 2001-ci ilin yekunu üzrə maliyyə hesabatlığı**
10.1. Mühasibat balansı və Milli Bankın maliyyə fəaliyyətinin yekunları . . . . . 90
10.2. Müstəqil beynəlxalq audit şirkətinin 2001-ci ilin yekunu üzrə
Milli Bankın illik balansı barədə rəyi . . . . . 94

**11. Milli Bankın 2002-ci il üçün pul-kredit və valyuta siyasəti haqqında bəyanatı** . . . . . **146**

**Qrafiklər və cədvəllər** . . . . . **154**

# TABLE OF CONTENTS


**Introduction** . . . . . **5**

**1. Socio-economic conditions in Azerbaijan**

1.1. Real sector . . . . . 7

1.2. Balance of Payments . . . . . 13

1.3. World economy and international financial markets . . . . . 25

**2. Monetary policy. Objectives and results**

2.1. Objectives and results of the monetary policy in 2001 . . . . . 27

2.2. Instruments of monetary policy . . . . . 33

2.3. Foreign exchange policy and management of gold and foreign exchange reserves . . . . . 35

2.4. Development of financial markets . . . . . 43

**3. Banking reforms**

3.1. The banking system in a new development stage . . . . . 49

3.2. Adjusting banking supervision in conformity with international standards . . . . . 55

**4. Situation with the payment system and circulation of cash**

4.1. Expanding application of the electronic payment system . . . . . 61

4.2. Cash stock undergoes renewal . . . . . 65

**5. Development of banking legislation** . . . . . **69**

**6. Human resources development** . . . . . **77**

**7. Results of the first year of strategic planning at the National Bank** . . . . . **81**

**8. International relations of the National Bank**

8.1. Cooperation with international financial and credit institutions . . . . . 85

8.2. Cooperation with central banks of foreign countries . . . . . 87

**9. Internal audit at the National Bank** . . . . . **89**

**10. The National Bank's financial reporting as of the end of 2001**

10.1. Accounting balance and summary of the National Bank's financial activities . . . . . 91

10.2. Opinion of an independent international audit firm on the National Bank's annual balance for 2001 . . . . . 95

**11. The National Bank's statement on the monetary and foreign exchange policies for 2002** . . . . . **147**

**Charts and tables** . . . . . **155**

# Giriş

*Azərbaycan Respublikası Milli Bankının 2001-ci ilin yekunları üzrə təqdim etdiyi hesabatda illik fəaliyyətinin nəticələrinin şərhi öz əksini tapmışdır.*

*Milli Bank öz fəaliyyətini 2001-ci il üçün müəyyən edilmiş pul-kredit siyasətinin başlıca istiqamətlərində nəzərdə tutulan məqsəd və vəzifələrin yerinə yetirilməsi üzərində qurmuşdur. 2001-ci ildə də yeridilən pul-kredit siyasətinin əsas məqsədini ölkədə bərqərar olmuş makroiqtisadi sabitliyi qorumaq, inflyasiyanı məqbul səviyyədə saxlamaq, milli valyutanın sabitliyini təmin etmək, valyuta ehtiyatlarını zəruri hədlərdə qorumaq və artırmaq, bank islahatlarını daha da dərinləşdirmək təşkil etmişdir.*

*Qarşıya qoyulan məqsədlərə nail olunmuş, inflyasiya məqbul səviyyədə saxlanılmış, iqtisadi artıma adekvat olaraq və mövcud maliyyə sabitliyinə xəta yetirmədən pul təklifinin artımı təmin edilmiş, pul-kredit göstəriciləri əvvəlki ilə nisbətən xeyli yaxşılaşmış və bütün bunlar ölkədə baş verən sürətli iqtisadi artımda müəyyən rol oynamışdır.*

*İdxalı əvəz edən və ixrac yönümlü sahələrin inkişafına yönəldilmiş valyuta siyasəti, eləcə də dünya bazarlarındakı əlverişli qiymət konyukturu şəraitində, iqtisadiyyatın digər sferalarında aparılan islahatlar və tərəqqi nəticəsində ölkənin tədiyyə qabiliyyəti daha da yaxşılaşmışdır. Təsadüfi deyil ki, nüfuzlu "Fitch IBCA" beynəlxalq reytinq agentliyinin 2001-ci ilin iyun ayında qəbul etdiyi qərara əsasən Azərbaycanın uzunmüddətli kredit reytinqi daha da yüksəldilərək "BB-"ə çatmışdır.*

*Pul-kredit siyasətinin təkmilləşdirilməsi istiqamətində də mühüm işlər görülmüşdür. Monetar siyasətin tədqiqat bazası dərinləşdirilmiş, bu məqsədlə ekonometrik metodlardan geniş istifadə olunmasına başlanılmışdır. Pul-kredit siyasətin tənzimləmə alətlərinin çeşidi genişləndirilmiş, xüsusilə açıq bazarda əməliyyatları fəallaşmışdır.*

*Hesabat ilində də özəl və dövlət bankları üzrə islahatlar davam etdirilmişdir. Dövlət banklarının restrukturizasiyası başa çatdırılmışdır. Beynəlxalq Bank artıq özəlləşdirməyə tam hazırdır. Birləşmiş Universal Səhmdar Bankının da səmərəli fəaliyyətinin təmin olunması istiqamətində əhəmiyyətli tədbirlər həyata keçirilmişdir. Özəl bankların konsolidə olunması, kapitallaşması və bu əsasda sağlamlaşdırılması istiqamətində əhəmiyyətli işlər görülmüş, bank sisteminin problemli banklardan təmizlənməsi prosesi davam etdirilmişdir. Eyni zamanda bank infrastrukturunun inkişaf etdirilməsi, xüsusilə elektron ödəniş sisteminin tətbiqi, mühasibat uçotunun beynəlxalq standartlara və bank nəzarətinin Bazel prinsiplərinə uyğunlaşdırılması istiqamətində xeyli işlər görülmüşdür.*

*Nəticədə bank sisteminin, xüsusilə özəl bankların iqtisadiyyatda rolu artmış, banklara inamın artması hesabına genişlənən əmanət və depozit bazası bankların kredit qoymaq imkanlarını genişləndirmiş, sağlam rəqabət mühitində müştərilərə xidmətdə beynəlxalq standartlara uyğun çeşidli, yüksək xidmət texnologiyası məhsullarının tətbiqi genişlənmişdir. Bu gün Azərbaycan banklarının aparıcı ölkələrin banklarından, beynəlxalq maliyyə-kredit təşkilatlarından dövlət zəmanəti olmadan kreditlər cəlb etməsi, eləcə də Azərbaycan bank kapitalının xarici ölkələrin bank bazarında iştirak etməsi milli bank sisteminin artıq beynəlxalq arenada da nüfuz və inam qazanmağa başladığını göstərir.*

*2001-ci ilin mühüm yeniliklərindən biri də 2002-2005-ci illəri əhatə edən Azərbaycan Bank Sisteminin İnkişaf Strategiyasının hazırlanması olmuşdur.*

*2001-ci il həm də Milli Bankda strateji planlaşdırmanın tətbiqinin 1 illik yekunlarının gözlənilənləri doğrultması ilə səciyyəvi olmuşdur. Belə ki, strateji planlaşdırma kollektivin işinə səfərbəredici təsir etməklə növbəti il üçün yeni və daha iddialı vəzifələrin qarşıya qoyulmasına zəmin yaratmışdır.*

*Hesabatda 2001-ci ilin yekunları ilə yanaşı, qarşıdakı il üçün pul-kredit və valyuta siyasətinin başlıca istiqamətlərini özündə əks etdirən bəyanat da öz əksini tapmışdır.*

*Eyni zamanda hesabatda müstəqil auditor şirkəti olan "PraysUoterhausKupers" tərəfindən Milli Bankın 2001-ci ildəki fəaliyyətinin, eləcə də mühasibat və maliyyə balansının yoxlanılmasının yekunlarına dair rəyi təqdim olunur.*

*İllik hesabatın daha geniş oxucu kütləsinə çatdırılmasını təmin etmək üçün o Milli Bankın xüsusi web saytında (**www.nba.az**) da yerləşdirilmişdir.*

# Introduction

The annual report presented by the National Bank of the Azerbaijan Republic upon the results of 2001 outlines the results of the National Bank's activities during the year.

The National Bank has oriented its activities toward achievement of goals and objectives envisaged in major guidelines of the monetary policy formulated for 2001. Main objectives of the monetary policy, carried out during 2001, included protection of the macroeconomic stability achieved in the country, keeping inflation within acceptable limits, ensuring stability of the national currency, protection and ensuring growth of foreign exchange reserves within required limits, and further extension of banking reforms.

The objectives set were successfully achieved; inflation was kept at acceptable level; growth of money supply that would be adequate to economic growth, and yet not dangerous to present financial stability, was ensured; monetary indicators were significantly improved compared to previous periods. All of these played certain role in the rapid economic growth that takes place in the country.

Paying capability of the country was further improved as a result of foreign exchange policy aimed at development of import-substituting and export-oriented sectors, as well due to reforms and progress achieved in other sectors of the economy under condition of favorable price trends in the world markets. It is not accidental that based on the decision made by the world-known international rating agency Fitch IBCA in June 2001, the long-term credit rating of Azerbaijan was further upgraded and reached "BB-".

Significant actions were also taken in improving of monetary policy. Research base of the monetary policy was enhanced and, for this purpose, econometric methods were introduced for broader use. The range of monetary policy instruments was enhanced; in particular, operations in the open market became more active.

Reforms related to private and state banks have also continued during this reporting year. Restructuring of the state banks was completed. The International Bank of Azerbaijan is completely ready for privatization. Significant steps have also been taken to ensure efficient operations of the United Universal Joint-Stock Bank. Significant work was done in the field of consolidation, capitalization and, based on these, strengthening of private banks, and the process of clean up of the banking system from problem banks has continued. At the same time, a lot of work was done in relation to development of banking infrastructure, specifically, introduction of the electronic payment system, and bringing accounting and banking supervision into conformity with international standards and Basle principles.

As a result, the role of the banking system in the economy, especially the role of private banks, increased. Savings and other deposits, which have grown as a result of growing trust in banks, enhanced banks' capacities to provide loans. Utilization of high-quality technology products, under conditions of healthy competitive environment, in conformity with international standards for customer services, has also increased. Today, attraction of loans by Azeri banks from the world leading countries' banks and international financial and credit institutions without a government guarantee, as well as participation of the Azeri banking capital in the banking market of foreign countries, show that the national banking system has begun to gain reputation and trust in the international arena.

One of the new developments of 2001 was working out the Azerbaijan Banking System Development Strategy for 2001-2005.

The year 2001 became also special for the fact that the results of the 1st year of implementation of the National Bank's Strategic Planning have proven the expectations. Thus, by having mobilizing influence on the staff, the strategic planning created grounds for setting up new and more ambitious goals for the next year.

Along with the results of 2001, the report also includes the statement, which describes main directions of monetary and foreign exchange policies for the forthcoming year.

In addition, this report also includes the opinion of the independent audit firm PriceWaterhouseCoopers in relation to the results of audit of the National Bank's operations, as well as accounting and financial balance for 2001.

In order to ensure the access to the annual report by broader audience of readers, this report has been placed in the National Bank's special website **(www.nba.az).**

# 1. AZƏRBAYCANDA SOSİAL - İQTİSADİ VƏZİYYƏT

## 1.1 Real sektor

2001-ci ilin yekunları əvvəlki illərdə olduğu kimi Azərbaycan iqtisadiyyatında pozitiv meyllərin güclənməsini və iqtisadi artım tempinin davamlı xarakter aldığını nümayiş etdirir. Makroiqtisadi vəziyyətin sabitliyi daha da möhkəmlənlmiş, inflyasiyanın aşağı səviyyəsinə nail olunmuş və beləliklə sabit, davamlı və yüksək templi iqtisadi inkişaf üçün zəruri olan əlverişli iqtisadi zəminin yaxşılaşması davam etmişdir.

İqtisadiyyatın həm neft, həm də qeyri-neft sektorunda investisiya fəallığı digər tərəfdən isə dünya bazarında neftin qiymətlərinin əlverişli olması milli iqtisadiyyatın həm daxili, həm də xarici amillər hesabına yüksəlişini təmin etmişdir. Bütövlükdə, makroiqtisadi göstəricilərin dinamikasına görə Azərbaycan əksər keçid iqtisadiyyatlı ölkələrdən ön mövqedə durmaqdadır.

Bütün bunların nəticəsidir ki, nüfuzlu "Fitch IBCA" beynəlxalq reytinq agentliyinin 2001-ci ilin iyun ayında qəbul etdiyi qərara əsasən Azərbaycanın uzunmüddətli valyuta kredit reytinqi daha da yüksəldilərək "BB"-yə çatmışdır.

2001-ci ildə məcmu tələb (nominal ÜDM) 12,8% artmış, ÜDM-in deflyatoru isə 102,7% təşkil etmişdir. 2001-ci ildə məcmu tələbin və məcmu təklifin artımı bütövlükdə makroiqtisadi tarazlığı təmin etmişdir. Nəticədə istehlak qiymətlərinin artımı cəmi 1,5 % təşkil etmişdir.

Məcmu tələbin artımı onun bütün komponentləri üzrə baş vermişdir. 2001-ci ildə əhalinin xərcləri (o cümlədən istehlaka yönələn xərcləri) 7,1%, iqtisadiyyata qoyulan investisiyalar 17,1%, xalis ixrac 54,1%, dövlət büdcəsinin xərcləri isə 5,6% artmışdır.

**2001 - ci ildə ÜDM-in strukturu**




2001-ci ildə ölkədə istehsal olunan ÜDM-in həcmi cari qiymətlərlə 26.6 trilyon manat olmuş, 2000-ci illə müqayisədə onun real həcmi 9,9%. ÜDM-in strukturunda məhsul istehsalı və xidmət sahələrinin xüsusi çəkiləri müvafiq olaraq 57,3% və 34,9% təşkil etmişdir. Qalan 7,8% xalis vergilərin payına düşmüşdür. Əgər 2000-ci ildə ÜDM-in bir faiz artımı 188,8 mlrd. manat əlavə dəyərə bərabər idisə, yola saldığımız ildə bu göstərici 235,9 mlrd. manat təşkil etmişdir.

# 1. SOCIO-ECONOMIC CONDITIONS IN AZERBAIJAN

## 1.1. Real Sector

Same as in previous years, the results of 2001 demonstrate strengthening of positive trends in Azerbaijan's economy and sustainability of economic growth rate. Macroeconomic stability has been further strengthened and inflation has been brought to lower level, and thus, improvement of favorable economic ground required for development of stable, sustainable and high rate economic growth has continued.

Investment activity in both oil and non-oil sectors of the economy, as well as favorable prices for oil in the world market, have ensured growth of the national economy on account of both domestic and external factors. As a whole, by dynamics of macroeconomic indicators, Azerbaijan continues to hold leading position among majority of transition economies.

As a result of these, the international rating agency Fitch IBCA in its decision of June 2001 has further upgraded Azerbaijan's long-term foreign exchange credit rating to "BB-".

In 2001, gross demand (nominal GDP) rose by 12.8 %, while the GDP deflator was 102.7 %. In 2001, the growth of gross demand and gross supply generally has ensured the macroeconomic balance. As a result, growth of consumer prices was 1.5%.

The growth in gross demand took place across all of its components. In 2001, spendings of the population (including consumption oriented expenditures) rose by 7.1 %; investments to the economy by 17.1%; net export by 54.1%; and state budget expenditures by 5.6 %.

**Structure of GDP in 2001**




The volume of GDP produced in the country during 2001 was manat 26.6 trillion at current prices, which, compared to 2000, shows an increase of 9.9% in real terms. In the structure of GDP, the share of production and service sectors made up 57.3% and 34.9% respectively. The remaining 7.8% correspond to net taxes. While in 2000, 1 % increase in GDP equaled manat 188.8 billion worth added value, in the reporting year this indicator was manat 235.9 billion. Per capita GDP was manat 3.3 million ($ 715.4), which,

**Respublika iqtisadiyyatının sahələr üzrə fiziki həcm indeksləri**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|---|
| ÜDM-in nominal həcmi, mlrd. man. | 10668,8 | 13663,2 | 15791,4 | 17203,4 | 18875,4 | 23590,5 | 26619,8 |
| Adambaşına düşən ÜDM həcmi, min man. | 1410,3 | 1787,7 | 2046 | 2207,5 | 2400,6 | 2975,4 | 3331,1 |
| ÜDM-in real həcm indeksi | 88,2 | 101,3 | 105,8 | 110,0 | 107,4 | 111,1 | 109,9 |
| Sənaye | 78,6 | 93,3 | 100,3 | 102,2 | 103,6 | 106,9 | 105,1 |
| Kənd təsərrüfatı | 93,0 | 103,0 | 93,9 | 106,2 | 107,1 | 112,1 | 111,1 |
| Kapital qoyuluşu | 82,0 | 240,0 | 139 | 123 | 98 | 102,6 | 117,1 |
| Nəqliyyatla yük daşınması | 76,6 | 99,2 | 110,6 | 112,2 | 107,3 | 117,8 | 123,0 |
| Ticarət | 102,3 | 114,1 | 114,9 | 110,3 | 113,3 | 109,8 | 109,9 |
| Pullu xidmətlər | 75,6 | 97,8 | 115,4 | 115,9 | 103,2 | 103,7 | 105,6 |

Əhalinin hər nəfərinə 3,3 mln. manat (715,4 ABŞ dolları) və ya 2000-ci illə müqayisədə 9,0% çox ÜDM istehsal olunmuşdur.

ÜDM-in real artımını təmin edən amillərin strukturunda dəyişikliklər baş vermişdir. Sənayedə yaradılan əlavə dəyərin xüsusi çəkisi 35,5% təşkil etmişdir. Kənd təsərrüfatında bu göstərici 15,7%, tikintidə 6,1%, nəqliyyatda 9,9%, rabitədə 2,4%, sosial və xidmət sahələrində (kommunal, mənzil, təsərrüfat və s.) 15,9% təşkil etmişdir.

Əsas məhsul istehsalı sahələrindən biri olan sənayenin fiziki həcm indeksi 2001-ci ildə 5,1% artmışdır. Neft və qaz hasilatında 5,9, neft-kimya sənayesində 23,2%, yeyinti sənayesində 7,6%, elektroenergetikada 3,2%, maşınqayırma müəssisələrində 25,1%, tikinti materialları sənayesində 8,5,%, unüyütmə-yarma müəssisələrində 14,3%-lik artım müşahidə olunmuşdur. Qeyri-dövlət bölməsində sənaye məhsulunun 48,3%-i istehsal olunmuş və 2000-ci ilə nisbətən 16,5% artmışdır.

Kənd təsərrüfatının ümumi məhsulu 11,1%, o cümlədən bitkiçilik məhsulları istehsalı 16,1%, heyvandarlıq məhsulları isə 4,1% artmışdır.

İl ərzində nəqliyyat müəssisələrinin (fərdi nəqliyyat da daxil olmaqla) yük daşınmadan gəlirləri 23% artmışdır. Rabitə xidmətlərindən gəlir 13,8% artmışdır. Nəqliyyat və rabitə xidmətlərinin ÜDM-də payı 12,3% təşkil etmişdir.

Ümumiyyətlə, 2001-ci ildə makroiqtisadi sabitliyə təsir göstərən amilləri sxematik olaraq aşağıdakı kimi təsvir etmək olar:



**Physical volume indices by sectors of the national economy**

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 |
|---|---|---|---|---|---|---|---|
| Nominal GDP, bln. AZM | 10668,8 | 13663,2 | 15791,4 | 17203,4 | 18875,4 | 23590,5 | 26619,8 |
| Per capita GDP, thousand AZM | 1410,3 | 1787,7 | 2046 | 2207,5 | 2400,6 | 2975,4 | 3331,1 |
| GDP real volume index | 88,2 | 101,3 | 105,8 | 110,0 | 107,4 | 111,1 | 109,9 |
| Industry | 78,6 | 93,3 | 100,3 | 102,2 | 103,6 | 106,9 | 105,1 |
| Agriculture | 93,0 | 103,0 | 93,9 | 106,2 | 107,1 | 112,1 | 111,1 |
| Capital investments | 82,0 | 240,0 | 139 | 123 | 98 | 102,6 | 117,1 |
| Cargo transportation | 76,6 | 99,2 | 110,6 | 112,2 | 107,3 | 117,8 | 123,0 |
| Trade | 102,3 | 114,1 | 114,9 | 110,3 | 113,3 | 109,8 | 109,9 |
| Paid services | 75,6 | 97,8 | 115,4 | 115,9 | 103,2 | 103,7 | 105,6 |

compared to 2000, represents an increase of 9.0%.

Changes took place in the structure of factors supporting real GDP growth. The share of added value created in the industry made up 35.5%, in agriculture – 15.7%, in construction – 6.1%, in transportation – 9.9%, in communication – 2.4 %, in social and services (municipal, housing, household and other) sectors – 15.9 %.

In 2001, physical volume index of industry, which is one of the main production sectors, rose by 5.1 %. Growth rate for oil and gas production was 5.9%, for petrochemical industry – 23.2 %, for food industry – 7.6%, for electric energy – 3.2%, for machine-building enterprises – 25.1%, for construction materials industry – 85%, and for flour-milling enterprises – 14.3%. Non-state sector of economy produced 48% of industrial products, which is 16.5 % higher than in 2000.

Total output in agricultural sector increased by 11.1%, including 16.1% for production of vegetative products and 4.1% for livestock products

During the year, revenues of transport enterprises (including private transport) generated from cargo transportation increased by 23%. Revenues generated from communication services increased by 13.8%. The share of transportation and communication services in GDP made up 12.3%.

In general, factors influencing macroeconomic stability in 2001 may schematically be represented as follows:




***Privatization.*** The privatization process, being an important constituent of structural reforms in

***Özəlləşdirmə.*** Ölkədə struktur islahatlarının mühüm tərkib hissəsi olan özəlləşdirmə prosesi davam etmişdir. Özəlləşdirmə prosesi başlanandan 2002-ci ilin yanvar ayının 1-ə kimi ümumi dəyəri 488,7 mlrd. manat olan 33700 kiçik müəssisə və obyekt, o cümlədən 653 sənaye, 120 kənd təsərrüfatı müəssisələri, 313 tikinti təşkilatı, 155 başa çatdırılmamış tikinti, 2565 ticarət, 716 iaşə müəssisəsi, 9534 məişət xidməti, 556 yanacaq doldurma məntəqəsi, 15071 nəqliyyat müəssissəsi və nəqliyyat vasitələri, 76 kommunal təsərrüfatı obyekti və 3941 digər obyektlər və avadanlıqlar özəlləşdirilmişdir.

Orta və iri obyektlərin özəlləşdirilməsi davam etməkdədir və yanvar ayının 1-ə kimi nizamnamə kapitalı 5227,5 mlrd. manat olan 1389 dövlət müəssisəsi səhmdar cəmiyyətə çevrilmişdir. Aparılan struktur islahatlarının nəticəsi-

62,5% qeyri-dövlət bölməsinin payına düşmüşdür.

***İnvestisiya.*** Ölkə iqtisadiyyatına cəlb olunan investisiyaların artması ölkədə investisiya mühitinin ilbəil yaxşılaşmasına dəlalət edir. Respublika iqtisadiyyatına, xüsusilə onun neft sektoruna xarici sərmayənin dayanıqlı axını, həmçinin yerli maliyyə mənbələri hesabına iqtisadiyyata qoyulan investisiyaların artması 2001-ci ildə də investisiya fəallığının yüksək səviyyədə qaldığını nümayiş etdirir. Hesabat ilində əsaslı kapitala bütün maliyyə mənbələri hesabına 5649,2 mlrd. manat və ya 2000-ci ilə nisbətən 17,1% çox investisiya qoyuluşu həyata keçirilmişdir. İnvestisiyaların 88,2% istehsal təyinatlı obyektlərin yaradılmasına yönəldilmişdir. Əsaslı kapitala yönəldilmiş investisiyaların 67,7% xarici investisiyaların payına düşmüşdür.

**2000-2001-ci illərdə iqtisadiyyata yönələn investisiyaların ÜDM-ə nisbəti, %-lə**

| | 2000 | 2001 |
|---|---|---|
| Cəmi | 20,5 | 21,2 |
| - daxili investisiyalar | 9,7 | 6,9 |
| - xarici investisiyalar | 10,8 | 14,3 |

dir ki, özəl bölmədə istehsalın həcmi ildən-ilə artır. İqtisadiyyatın qeyri-dövlət bölməsində 1997-ci ildə ÜDM-in 46%, 1998-ci ildə 59,5%, 1999-cu ildə 62%, 2000-ci ildə 68% istehsal olunmuşdusa, 2001-ci ildə özəl sektorun ÜDM-in istehsalında payı 71% çatmışdır. 2001-ci ildə ümumi sənaye məhsulunun 48,3%, kənd təsərrüfatı məhsulunun 99%, tikintinin 76,1%, nəqliyyatla yük daşınmasınının 56,7%, sərnişin daşınmasının 83,9%, rabitə xidmətlərinin 64,9%, ticarətin 98,4%, pullu xidmətlərin

Hesabat ilində istifadə edilmiş investisiyaların 4050 mlrd manatı (71,7%) sənaye sahələrinə, 195,7 mlrd. manatı (3,5%) ticarətə, 277.7 mlrd. manatı (4,9%) nəqliyyata, 361,6 mlrd. manatı (6,4%) rabitəyə, 463,5 mlrd. manatı (8,2%) yaşayış tikintisinə, 50,0 mlrd. manat (0,9%) səhiyyəyə, 53,2 mlrd. manatı (0,9%) tikintiyə, 41,7 mlrd. manatı (0,7%) kənd təsərrüfatına, 155,8 mlrd. manatı (2,8%) digər sahələrə yönəldilmişdir.

***Dövlət maliyyəsi.*** Respublikada müşahidə

the country has continued. From the commencement of privatization process until January 1, 2002, 33700 small companies and units with total value of manat 488.7 billion, including 653 – in industrial sector, 120 – in agricultural sector, 313 – in construction sector, 155 constructions in progress, 2565 trade companies, 716 catering companies, 9534 household services companies, 556 gasoline stations, 15071 transportation companies and means of transportation, 76 utility units and 3941 other units and pieces of equipment have been privatized. The privatization of medium-size and large businesses is currently in progress and up to January 1, 1389 public enterprises with the total share capital of manat 5227.5 billion have been reorganized into joint-stock companies.

As a result of implemented structural reforms, the volume of output in the private sector is growing from year to year. While the non-state sector of the economy produced 46% of GDP in 1997, 59.5% in 1998, 62% in 1999, and 68% in 2000, in 2001 the share of this sector in GDP reached 71%. In 2001, the non-state sector accounted for 48.3% of total industry output, 99% of agriculture production, 76.1% of construction, 56.7% of cargo transportation, 83.9% of passenger transportation, 64.9% of communication services, 98.4% of trade, and 62.5% of paid services.

***Investments.*** Growth of investments attracted to the country's economy reveals that investment environment in the country improves from year to year. Steady flow of foreign investments into the country's economy, especially into its oil sector, as well as growth of investments from local sources of financing, demonstrate that investment activity continued to remain at high levels in 2001. During the reporting year, manat 5649.2 billion was invested into fixed capital from all financial sources, and that is 17.1%, higher compared to 2000. 88.2% of investments were aimed at creation of production-oriented units. 67.7% of investments into fixed capital were financed by foreign sources.

**Investments to the economy for the period of 2000-2001 as a share of GDP, %**

| | 2000 | 2001 |
|---|---|---|
| Total | 20,5 | 21,2 |
| - domestic investments | 9,7 | 6,9 |
| - foreign investments | 10,8 | 14,3 |

Out of the investments used during the reporting year period, manat 4050 billion (71.7%) were invested in the industrial sectors, manat 195.7 billion (3.5%) in trade, manat 277.7 billion (4.9%) in transportation sector, manat 361.6 billion (6.4%) in communications sector, manat 463.5 billion (8.2%) in construction of habitable buildings, manat 50.0 billion (0.9%) in health sector, manat 53.2 billion (0.9%) in construction sector, manat 41.7 billion (0.7%) in agriculture, and manat 155.8 billion (2.8%) in other sectors.

***Public finance.*** Economic processes taking place in the country and radical reforms carried out have also influenced the dynamics and structure of the state budget revenues and expendi-

olunan pozitiv iqtisadi proseslər, aparılan radikal islahatlar dövlət büdcəsinin gəlir və xərclərinin dinamikasına və strukturuna da təsir göstərmişdir. Yeridilən büdcə-vergi siyasətinin nəticəsi olaraq 2001-ci ilin yekunları üzrə büdcənin gəlirləri əvvəlki ilə nisbətən 9,7%, xərcləri isə 7,2% artaraq ÜDM-in müvafiq olaraq 14,7% və 15,1% təşkil etmişdir.

Büdcəyə daxilolmaların yaxşılaşması proqnozda nəzərdə tutulmuş xərclərin maliyyələşdirilməsini təmin etməyə imkan yaratmışdır. Sosial müdafiə və sosial təminat xərclərinə 730,7 mlrd. manat və ya büdcənin ümumi xərclərinin 18,1% həcmində, iqtisadiyyatın inkişafına isə müvafiq olaraq 516 mlrd. manat və ya 12,8% vəsait ayrılmışdır. Dövlət büdcəsinin kəsiri 113,4 mlrd. manat olmuşdur ki, bu da ÜDM-in 0,4% təşkil edir.

***Sosial sfera***. İqtisadi artımın dinamik xarakter alması şəraitində 2001-ci ildə də əhalinin gəlirlərinin artması prosesi davam etmişdir. İlin yekunlarına görə əhalinin nominal pul gəlirlərinin həcmi əvvəvlki illə müqayisədə 10,4% artaraq 19,4 trln. manat təşkil etmişdir ki, bu da ÜDM-in 72,8%-nə bərabərdir. Əhalinin sərəncamında qalan pul gəlirləri ötən illə müqayisədə 9,7% artaraq 18,6 trln. manata çatmış, adambaşına hesabı ilə isə 2324,4 min manat təşkil edərək əvvəlki ilə nisbətən 8,8% artmışdır.

Əhalinin pul gəlirlərinin formalaşlmasında əsas yer sahibkarlıq fəaliyyətindən əldə olunan gəlirlərə məxsusdur. Ölkədə azad sahibkarlığın və şəxsi təşəbbüskarlığın inkişafı üçün yaradılmış əlverişli imkanlar əhalinin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlirlərinin 13.5% artmasına şərait yaratmışdır.

Əhalinin pul gəlirlərinin strukturunda əmək haqqı ikinci yeri tutur. 2001-ci ildə orta aylıq nominal əmək haqqı 2000-ci ilə nisbətən 26,7% artaraq 260 min manata (56 $) çatmış, qiymət indeksini nəzərə almaqla əmək haqqının real artımı 24,8% olmuşdur. Əhalinin gəlirlərinin artması məcmu tələbi genişləndirməklə iqtisadi artımın sürətlənməsinə təkan vermişdir.

2001-ci ildə iqtisadi fəal əhalinin sayı 3752,5 min nəfər (respublika əhalisinin 46,1%-i), onlardan iqtisadiyyatda məşğul olanlar 3704.6 min nəfər, rəsmi işsiz statusu alanlar isə 48,4 min nəfər təşkil etmişdir. Keçən illə müqayisədə iqtisadi fəal əhalinin sayı 4,7 min nəfər artmış, məşğul olanların sayı ötən ilin səviyyəsində qalmış, işsiz statusu alanların sayı 10,8% artmışdır. Ona görə də hazırda hökümət bu problemin həlli ilə ciddi məşğul olur, onun həlli yollarını axtarır. Bir tərəfdən yeni iş yerlərinin açılması, müvafiq bazar infrastrukturunun yaradılması (əmək birjası, ixtisas dəyişmə kursları və.s), digər tərəfdən işsizlərin sosial müdafiəsi istiqamətində tədbirlər görülür.

2001-ci ildə iri və orta müəssisələrdə əvəzçilik şərti ilə və mülki-hüquq xarakterli müqavilələr üzrə işləmək üçün 3,1 min nəfər cəlb edilmişdir. Həm də işsizlərin 2459 nəfərinə orta məbləği 80,9 min manat olan işsizliyə görə müavinət verilmişdir. Son illərdə özəl sektorun inkişafı da bu problemin həllinə yeni imkanlar açır.

### 1.2 Tədiyyə balansı

2001-ci ildə tədiyyə balansı statistikası sahəsində Mİlli Bank qarşısında hesabat tədiyə balansının tərtibinin təkmilləşdirilməsi, onun analitik bazasının genişləndirilməsi, proqnoz tədiyyə balansının tərtib edilməsi məqsədilə metodoloji bazanın yaradılması əsas məqsədlər kimi qarşıya qoyulmuşdur.

Taktiki planda nəzərdə tutulmuş tədiyə ba-

tures. As a result of fiscal policy conducted, based on the outturns of 2001, budget revenues and expenditures rose by 9.7% and 7.2% compared to the previous year, making up 14.7% and 15.1% of GDP, respectively.

Improvement of inflows into the state budget made it possible to provide financing for forecasted expenditures. Manat 730.7 billion, or 18.1 % of the total budget expenditures, was allocated for social protection and social welfare expenses, while manat 516 billion, or 12.8 % of the total budget expenditures, was allocated for economic development. The state budget deficit made up manat 113.4 billion, which is 0.4% of the GDP.

***Social sector.*** Under conditions, when economic growth has acquired a dynamic nature, the process of increasing earnings of the population has also continued in 2001. According to results of the reporting year, the level of nominal money earnings of the population increased by 10.4% compared to the previous year, and made up manat 19.4 trillion, which is equal to 72.8% of GDP. Disposable incomes of the population increased by 9.7% compared to the previous year and reached manat 18.6 trillion; per capita disposable incomes of the population made up thousand 2324.4 manat, which is 8.8% higher than the last year.

Special role in formation of the population's earnings belongs to earnings generated from entrepreneurial activity. Earnings from entrepreneurial activity of individuals, boosted by favorable conditions provided for development of entrepreneurs and sole proprietors, increased by 13.5%.

Wages and salaries occupy the second place in the structure of earnings of the population. In 2001, average monthly nominal salary increased by 26%, compared to 2000 and reached manat 260,000 ($56). Taking into account the price index, real wage growth was 24.8%. Increase in incomes of the population gave an impulse for acceleration of economic growth by enhancing gross demand.

In 2001, the number of economically active population was 3,752.1 thousand (46.1% of the country's population), 3704.6 thousand of them were involved in economic activities, and 48.4 thousand had an official status of unemployed. Compared to the previous year, the number economically active population rose by 4.7 thousand, the number of employed remained at the last year's level, and the number of people who obtained a status of unemployed increased by 10.8%. Therefore, the government is actively working on this problem, seeking the ways to solve it. Measures being taken are aimed at provision of new employment opportunities and development of an appropriate market infrastructure (labor market, job-training courses, etc.) on one hand, and social protection of the unemployed on the other hand.

During 2001, 3.1 thousand people were employed to work in medium-size and large companies, as substitutes and based on civil and legal contracts. At the same time, 2459 people received unemployment allowances at the average amount of manat 80,900. Development of the private sector during the last years provides new opportunities for solving this problem.

### 1.2. Balance of Payments

In 2001, the National Bank's main goals in the field of balance of payments statistics were to improve compilation of the balance of payments report, to enhance its analytical base, and to create methodological framework for compilation of the balance of payments forecast.

By having taken relevant actions aimed at

lansı statistikasının inkişafı üzrə məqsədyönlü iş aparmaqla, ölkənin tədiyə qabiliyyətinin düzgün qiymətləndirilməsinin makroiqtisadi əhəmiyyətini nəzərə alaraq tədiyyə balansının tərtibinin təkmilləşdirilməsi, təhlilinin dərinləşdirilməsi və proqnoz göstəricilərinin qiymətləndirilməsi işləri yerinə yetirilmiş və Milli Bank 2001-ci ilin yekunları üzrə beynəlxalq standartlara cavab verən tədiyə balansını tərtib etmişdir. Balansın tərtib olunma keyfiyyəti beynəlxalq maliyyə institutlarının ekspertlərinin də müsbət rəyini almışdır.

"*Cari əməliyyatlar hesabı*"nın təhlili göstərir ki, 2001-ci ildə cari əməliyyatların ümumi kəsiri 2000-ci ilin göstəricisi ilə müqayisədə 116,0 mln.$ azalaraq 51,8 mln.$ məbləğində olmuşdur. Cari hesabın əsas təsnifat qruplarının 2000-2001-ci illər üzrə müvafiq göstəricilərinin müqayisəsi aşağıdakı cədvəldə aydın görünür:

kəyə idxal olunan məhsulların həcmi 4,8% azaldığı halda, ixrac 11,9% artmışdır. İxracın ümumi həcmi 2000-ci ilin müvafiq göstəricisindən 220,6 mln. $ çox olmuş və 2078,9 mln. $ təşkil etmişdir. İdxalın isə həcmi 73,9 mln. $ azalaraq 1465,1 mln. $ olmuş, idxal və ixracın ÜDM-dəki xüsusi çəkiləri müvafiq olaraq 25,6% və 36,4% təşkil etmişdir.

**İxracın** strukturunda neft məhsulları mühüm yer tutur. Hesabat dövründə xarici dövlətlərə 1873,8 mln.$ neft məhsulları ixrac olunmuşdur ki, bu da 2000-ci ilin göstəricisindən 294,8 mln. $ çoxdur. Bu əsasən xam neftin ixracının həcminin artması ilə bağlıdır. Belə ki, ölkədən ixrac olunmuş xam neftin həcmi 2000-ci illə müqayisədə 2,7 mln. ton çox olmuşdur. İl ərzində ölkədən 1488,4 mln. $ məbləğində xam neft ixrac olunmuşdur ki, bu da 2000-ci ilin göstəricisindən 391,0 mln.$ çoxdur. İxrac olunmuş xam




***Xarici ticarət.*** 2001-ci ilin yekunlarına görə xarici ticarət dövriyyəsi 3544,0 mln. $ təşkil etmiş və 2000-ci ilin müvafiq göstəricisinə nisbətən 4,3% artmışdır. Müqayisə olunan dövrdə öl-

neftin 1109,5 mln.$ Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (konsorsium) tərəfindən ixrac edilmişdir.

Qeyd edək ki, konsorsium tərəfindən ixrac

development of the balance of payments statistics, as envisaged in the tactical plan, and taking into account the macroeconomic importance of accurate evaluation of the country's paying capability, measures on enhancement of analysis and evaluation of forecast indicators were implemented, and the National Bank prepared the balance of payments upon results of 2001 in conformity with international standards. The quality of this balance of payments also received positive comments from experts of international financial institutions.

***Current account.*** Analysis of the current account shows that in 2001 total deficit of current account operations, compared to figures for 2000, fell by $116.0 and was $51.8 million. Comparison of relevant indicators under main classification groups of the current account for 2000-2001 is shown in the Figure below:




***Foreign trade.*** According to the results of 2001, foreign trade turnover was $3544.0 million, which, compared to 2000, represents an increase by 4.3%. During the period under comparison, while the volume of goods imported into the country dropped by 4.8%, the volume of exports increased by 11.9%. The total volume of exports was $2078.9 million, which is $220.6 million higher than in 2000. The volume of imports, compared to 2000, fell by $73.9 million and made up $1465.1 million. Imports and exports as a share of GDP were 25.6% and 36.4%, respectively.

Oil products occupy a substantial part in the structure of **exports**. During the reporting year, $1873.8 million worth of oil products were exported to foreign countries, which is $294.8 million higher than in 2000. This is mainly caused by increase in the volume of crude oil exports. Thus, the volume of crude oil exported from the country is 2.7 million tons higher compared to 2000. During 2001, $1488.4 million worth of crude oil was exported from the country, which is $391.0 million more than in 2000. Out of total crude oil exports, the Azerbaijan International Operating Company (oil consortium) has exported $1109.5 million worth of

**Xarici ticarətin strukturu**

| | 2000 -ci il | | 2001 -ci il | | 2000-ci ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|
| | Mln. $-la | xüsusi çəkisi,%-lə | Mln. $-la | xüsusi çəkisi,%-lə | |
| Dövriyyə-cəmi o cümlədən | 3397 | 100 | 3544 | 100 | 104 |
| İxrac | 1858 | 55 | 2079 | 59 | 112 |
| İdxal | 1539 | 45 | 1465 | 41 | 95 |
| Saldo | 319 | | 614 | | 192 |

olunmuş neftin 593,0 mln.$ "Əsrin müqaviləsi" ilə bağlı xarici ölkələrin iri neft şirkətləri tərəfindən Azərbaycana yönəldilmiş birbaşa investisiyaların repatriasiyası kimi, yəni neft sektorunun xarici öhdəliklərinin azalması hesabına, 326,2 mln.$ və 190,2 mln. $-ı isə müvafiq olaraq konsorsiumun payçı xarici şirkətlərinin və Azərbaycanın paylarına düşən gəlir nefti kimi ixrac edilmişdir. İxrac olunmuş bütün xam nef-

Ölkənin digər strateji məhsulu olan pambıq ixracının dəyər həcmi 2000-ci ilə nisbətən 2,4 dəfə (21,5 mln. $) azalaraq 15,0 mln.$ bərabər olmuşdur. Bunun da əsas səbəbi ixrac olunmuş pambığın miqdarının 21,4 min ton azalmasıdır. 2001-ci il ərzində respublikadan 35,5 mln. $ məbləğində kimya məhsulları, 64,1 mln. $ həcmində isə maşınqayırma məhsulları da xarici ölkələrə ixrac olunmuşdur.

**İxracın əmtəə strukturu**

| | 2000-ci il | | 2001-ci il | |
|---|---|---|---|---|
| | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə |
| İxrac - cəmi o cümlədən | 1858 | 100,0 | 2079 | 100,0 |
| Yanacaq-xammal məhsulları o cümlədən | 1713 | 92,2 | 1962 | 94,4 |
| - neft məhsulları | 1579 | 85,0 | 1874 | 90,1 |
| - digər xammal | 134 | 7,2 | 88 | 4,3 |
| Maşın və avadanlıq | 63 | 3,4 | 56 | 2,7 |
| İstehlak malları | 56 | 3,0 | 58 | 2,8 |
| Digər mallar | 26 | 1,4 | 3 | 0,1 |

tin 378,9 mln.$-ı isə ARDNŞ-i və ölkənin digər müəssisələri tərəfindən xaricə göndərilmişdir. Bu isə öz növbəsində keçən ilin ixracından 296,8 mln.$ çoxdur. Bunun da əsas səbəbi ölkəyə idxal olunan təbii qazın dəyərinin ödənilməsi üçün ARDNŞ tərəfindən ixrac olunmuş xam neftin artması ilə bağlıdır.

**İdxalın** strukturu əvvəlki dövrlərdə olduğu kimi, yenə də ixracın strukturundan köklü surətdə fərqlənir. Fiziki şəxslərin çarter hava reysləri və avtomobil nəqliyyatı ilə məkik idxalını (315,7 mln. $) və humanitar malları (48,2 mln. $) nəzərə almaqla 2001-ci il ərzində respublikaya 703,1 mln.$ məbləğində xalq istehlakı

**Structure of foreign trade**

| | 2000 | | 2001 | | Compared to 2000, % |
|---|---|---|---|---|---|
| | $ Million | Share, % | $ Million | Share, % | |
| Total turnover Including | 3397 | 100 | 3544 | 100 | 104 |
| Export | 1858 | 55 | 2079 | 59 | 112 |
| Import | 1539 | 45 | 1465 | 41 | 95 |
| Balance | 319 | | 614 | | 192 |

crude oil. It should be noted that oil for the amount of $593.3 million was exported by the oil consortium as repatriation of direct investments made by large foreign oil companies in Azerbaijan in relation to the "Contract of the Century", i.e. it reduced foreign liabilities of the oil sector. Oil for the amounts of $317.0 million and $190.2 million, respectively, was exported as the profit oil belonging to foreign companies participating in the consortium, and to Azerbaijan. Out of total crude oil exports, $378.9 million exports in order to pay for the natural gas imported to the country.

The level of exports of another strategic product of the country – cotton – fell by 2.4 times ($ 21.5 million) compared to 2000 and made up $15.0 million. The main reason for this was a drop in the amount of exported cotton by 21.4 thousand tons. During 2001, $35.5 million worth of chemical products and $64.1 million worth of machinery were also exported to foreign countries.

**Commodity structure of exports**

| | 2000 | | 2001 | |
|---|---|---|---|---|
| | Amount, $ mln. | Share, % | Amount, $ mln. | Share, % |
| Export – total including | 1858 | 100,0 | 2079 | 100,0 |
| Fuel and raw materials Including | 1713 | 92,2 | 1962 | 94,4 |
| Oil products | 1579 | 85,0 | 1874 | 90,1 |
| Other raw materials | 134 | 7,2 | 88 | 4,3 |
| Machinery and equipment | 63 | 3,4 | 56 | 2,7 |
| Consumer goods | 56 | 3,0 | 58 | 2,8 |
| Other products | 26 | 1,4 | 3 | 0,1 |

worth of crude oil was shipped by SOCAR and other enterprises of the country. This exceeds the respective export of the previous year by $296.8 million. The main reason behind it is that SOCAR increased the volume of crude oil

As during previous periods, the structure of **imports** differs substantially from the structure of exports. Taking in consideration import by individuals by means of charter flights and automobiles ($315.7 million), and humanitarian aid

**İdxalın əmtəə strukturu**

| | 2000-ci il | | 2001-ci il | |
|---|---|---|---|---|
| | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə | məbləğ, mln. $-la | xüsusi çəkisi,%-lə |
| İdxal - cəmi<br>o cümlədən | 1539 | 100,0 | 1465 | 100,0 |
| İstehlak malları<br>o cümlədən | 769 | 50,0 | 703 | 48,0 |
| - ərzaq məhsulları | 365 | 23,7 | 340 | 23,2 |
| - digərləri | 404 | 26,3 | 363 | 24,8 |
| İnvestisiya yonümlü mallar | 334 | 21,7 | 330 | 22,5 |
| - neft sektoru | 147 | 9,6 | 139 | 9,5 |
| - digərləri | 187 | 12,1 | 191 | 13,0 |
| Digər mallar | 436 | 28,3 | 432 | 29,5 |
| - təbii qaz | 12 | 0,8 | 180 | 12,3 |

malları gətirilmişdir. Bunun da 48,3%-ə qədəri, yəni 339,9 mln. $-ı ərzaq məhsullarının payına düşür. Eyni zamanda qeyd etmək lazımdır ki, idxalı əvəz edən yerli istehsalın artması nəticəsində 2000-ci illə müqayisədə xalq istehlakı mallarının idxalı 65,4 mln. $, o cümlədən ərzaq məhsulları 24,8 mln. $ azalmışdır. İdxalın funksional strukturunda investisiya yönümlü maşın-avadanlıqların və malların xüsusi çəkisi 22,5% təşkil edərək 329,6 mln. $ məbləğində olmuşdur. Bundan başqa il ərzində respublikaya 180,2 mln. $ dəyərində təbii qaz və ümumi məbləği 145,6 mln. $ bərabər olan istehsal təyinatlı kimya, qara və əlvan metal məhsulları da gətirilmişdir. Bütövlükdə, keçən illə müqayisədə qaz idxalına sərf olunmuş məbləğ nəzərə alınmadan, idxalın ümumi həcmi 220,3 mln. $ azalmışdır. Bunun da əsas səbəbi ölkədə aparılan pul-kredit və məzənnə siyasəti nəticəsində idxalı əvəz edən bəzi sənaye sahələrinin müəyyən qədər inkişaf etməsi və obyektiv faktorların təsiri nəticəsində əvvəlki illərdə qeyri-neft sektoruna cəlb olunmuş investisiya axınlarının "məhsulvermə" dövrünün başlanmasıdır. Hər iki meyl pozitiv nəticədir.

Xarici ticarətin 18,8%-i MDB-yə üzv olan dövlətlərin, 81,2%-i isə digər xarici dövlətlərin payına düşür. Respublikamız əmtəə mübadiləsində İtaliya, Rusiya, Türkiyə, İran, İsrail, Türkmənistan, Gürcüstan, İspaniya, ABŞ və Qazaxıstan ilə daha intensiv ticarət əlaqələri yaratmışdır. Bütövlükdə Azərbaycan Respublikasının idxal - ixrac əməliyyatlarının 73,5%-i yuxarıda adı çəkilən əsas tərəfmüqabilləri olan 10 dövlət ilə aparılmışdır.

***Beynəlxalq xidmətlər.*** 2001-ci il ərzində xarici dövlətlərlə Azərbaycanın iqtisadi əlaqələrində qarşılıqlı xidmətlər əsas yerlərdən birini tutmuşdur və həmin xidmətlərin ümumi həcmi 954,7 mln. $ təşkil etmişdir. Qeyri-rezidentlər tərəfindən Azərbaycanın hüquqi və fiziki şəxslərinə 664,9 mln.$ məbləğində xidmət göstərildiyi halda, Azərbaycanın xarici ölkələrin rezidentlərinə göstərdiyi xidmətlərin dəyəri 289,8 mln. $ təşkil etmişdir. Xidmətlər balansı kəsirinin 2001-ci ildə də belə yüksək olması (375,0 mln. $) əsasən beynəlxalq neft kontraktları çərçivəsində neft sektorunun fəaliyyəti ilə bağlı işlərin yerinə yetirilməsilə əlaqədar cəlb edilmiş 712,0 mln. $ xarici investisiyaların 326,7 mln. $

($48.2 million), $703.1 million worth of consumer goods were imported to the country during 2001. Up to 48.3% of those imports, i.e. $339.9 million, relates to foodstuffs. At the same time, it is necessary to note that as a result of increase in import-substituting local production, import of consumer goods fell by $65.4 million, including $24.8 million in foodstuffs, as compared to 2000. In the functional structure of imports, the share of investment-oriented machinery equipment and products made up 22.5% or $329.6 million. In addition, $180.2 million worth of natural gas, and $145.6 million worth of production-oriented chemicals, as well as ferrous and non-ferrous metal products were imported to the country during the reporting year. In total, compared to the last year, the total volume of imports fell by $220.3 million, not taking into account the amount spent on gas imports. The main reason for this was some development of several import-substituting industry sectors, as a result of monetary and foreign exchange policies conducted in the country, and beginning of "profitability" period for investments attracted to the non-oil sector in the previous years, as a result of certain objective factors. Both trends represent positive results.

**Commodity structure of imports**

| | 2000 | | 2001 | |
|---|---|---|---|---|
| | Amount, $mln. | Share, % | Amount, $mln. | Share, % |
| Import – total<br>Including | 1539 | 100,0 | 1465 | 100,0 |
| Consumer goods<br>Including | 769 | 50,0 | 703 | 48,0 |
| - food products | 365 | 23,7 | 340 | 23,2 |
| - other | 404 | 26,3 | 363 | 24,8 |
| Investment-oriented products | 334 | 21,7 | 330 | 22,5 |
| - oil sector | 147 | 9,6 | 139 | 9,5 |
| - other | 187 | 12,1 | 191 | 13,0 |
| Other products | 436 | 28,3 | 432 | 29,5 |
| - natural gas | 12 | 0,8 | 180 | 12,3 |

18.8% of foreign trade was carried out with CIS countries, 81.2% - with other foreign countries. Our country has established more intensive trade relations related to exchange of commodities with Italy, Russia, Turkey, Iran, Israel, Turkmenistan, Georgia, Spain, USA and Kazakhstan. In total, 73.5% of import and export operations of the Azerbaijan Republic were carried out with the above mentioned 10 countries.

***International services.*** During 2001, mutual services played one of the main roles in economic relations of Azerbaijan with foreign countries, with the total volume of those services making up $ 954.7 million. While services provided to individuals and companies of Azerbaijan by non-residents made up $664.9 million, Azerbaijan in turn provided services to foreign residents for the amount of $289.8 million. The fact that deficit of the balance of services in 2001 remained so high ($375.0 million) is mainly related to the fact that out of $712.0 million worth of foreign invest-

məbləğində vəsaitinin xidmətlərə sərf edilmiş xərclərə görə obyektiv olaraq xarici dövlətlərin rezidentlərinə ödənilməsi ilə bağlıdır.

Tədiyə balansında öz əksini tapmış qarşılıqlı xidmətlər dövriyyəsinin 33,3%-i nəqliyyat üzrə aparılan əməliyyatların payına düşür. Ümumi dəyəri 318,3 mln. $ bərabər olan nəqliyyat xidmətlərinin 49,2%-i (156,6 mln.$) Azərbaycan rezidentlərinin xarici dövlətlərin nəqliyyat sistemlərindən istifadə etmələri ilə əlaqədardır. Öz növbəsində Azərbaycanın digər ölkələrə göstərdiyi nəqliyyat xidmətlərinin ümumi dəyəri 161,7 mln.$ bərabər olmuşdur. Bu vəsaitin xeyli hissəsi TRASEKA layihəsi çərçivəsində respublika ərazisi vasitəsilə Orta Asiya respublikaları ilə Avropa ölkələri arasında tranzit yükdaşımalarının intensivləşməsi nəticəsində əldə edilmişdir.

Hesabat dövründə xaricilərə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 42,6 mln. dollara bərabər olmuşdur ki, bunun da 48,9%-i (20,8 mln. $) qeyri-rezidentlərin Azərbaycana işgüzar səfərləri ilə bağlıdır. Öz növbəsində xarici ölkələr tərəfindən Azərbaycan rezidentlərinə turizmlə bağlı göstərilən xidmətlərin dəyəri 108,9 mln.$ olmuşdur. Burada əsas amil respublikamızdakı iqtisadi fəallığın və daxili sabitliyin bərqərar olması ilə əlaqədar turistlərin və iş adamlarının qarşılıqlı axınının lazımi səviyyədə qalması olmuşdur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, qarşılıqlı xidmətlərin respublikamızın xarici ölkələr ilə əmtəə və xidmətlər üzrə ümumi idxal - ixrac dövriyyəsində xüsusi çəkisi keçən illə müqayisədə 3,2% artaraq 21,2% təşkil etmişdir. Bunun da əsas səbəbi bir tərəfdən əmtəə idxalının 73,9 mln. $ azalması, digər tərəfdən isə neft sektorunun fəaliyyəti ilə bağlı xidmətlərin idxalının 176,5 mln.$ artması ilə bağlıdır.

***Gəlirlər.*** Gəlirlər üzrə daxilolmaların və ödənişlərin ümumi dövriyyəsi 450,1 mln. $ təşkil etmişdir. Bunun da əsas hissəsini - 90,8%-ni (408,7 mln. $) Azərbaycandan ödənişlər təşkil edir. Xaricə ödənilmiş bu vəsaitin əsas hissəsi beynəlxalq neft kontraktları ilə bağlı Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin xarici payçı investorlarının gəlirlərinin repatriasiyası (326,2 mln. $) və qeyri-rezidentlərə ödənilmiş əmək haqları (44,8 mln.$) ilə əlaqədardır. Həmçinin qeyd etmək lazımdır ki, gəlirlərlə bağlı respublikaya daxil olmuş vəsait 2000-ci illə müqayisədə bir qədər (14,4 mln.$) azalaraq cəmi 41,5 mln. $ bərabər olmuş və nəticədə 2000-ci illə müqayisədə gəlirlər üzrə ümumi kəsir 31,7 mln. $ artaraq 367,2 mln. $ çatmışdır.

***Cari transfertlər.*** Cari transfertlər üzrə xarici ölkələrdən alınan humanitar, texniki və digər yardımların ümumi dəyəri 66,3 mln.$ təşkil etmişdir. Yardımların ümumi dəyərinin əsas hissəsi humanitar idxal mallarından ibarətdir. Belə ki, 2001-ci il ərzində ölkəyə gətirilmiş humanitar idxal mallarının ümumi həcmi 48,2 mln.$ məbləğində olmuşdur. Cari transfertlər üzrə əməliyyatlara daxil olan fiziki şəxslərin pul baratları üzrə qarşılıqlı köçürmələrinin müsbət saldosu 9,5 mln.$ təşkil etmişdir. Bütövlükdə cari transfertlər üzrə əməliyyatlar 76,6 mln. $ müsbət saldo ilə nəticələnmişdir.

***"Kapitalın və maliyyənin hərəkəti hesabı"*** üzrə vəziyyət göstərir ki, 2001-ci ildə neft bonusu nəzərə alınmadan ölkəyə xarici kapital axını keçən illə müqayisədə 56,4 mln.$ artaraq 1191,0 mln. $ çatmışdır. Müsbət haldır ki, Azərbaycan iqtisadiyyatına bütün formalarda cəlb edilmiş xarici kapitalın ÜDM-də xüsusi çəkisi yüksək olaraq qalmaqdadır - 20,9%. Qeyd etmək lazımdır ki, iqtisadi artımın stimullaşdırılması baxımından ən effektiv formada - birbaşa

ments attracted for implementation of works related to oil sector operations under international oil contracts, $326 million was paid to foreign residents for services provided.

35.4% of mutual services reflected in the balance of payments relates to activities carried out in transportation sector. Out of the total $318.3 million worth of transportation services, 49.2% accounted for use of foreign transportation systems by residents of Azerbaijan. In turn, total value of transportation services provided by Azerbaijan to other countries amounted to $161.7 million. Major portion of this money was generated as a result of intensification of transit cargo transportation through the territory of Azerbaijan between the countries of Central Asia and Europe within the framework of the TRASECA project.

During the reporting period, the value of tourism services provided to foreigners amounted to $42.6 million, 48.9% ($20.8 million) of which was related to business trips of non-residents to Azerbaijan. In turn, the value of services provided by foreign countries to Azeri residents in relation to tourism was $108.9 million. The main factor here was that the reciprocal travel of tourists and businessmen stayed at the necessary level, due to internal stability and economic activity established in the country. As a whole, it should be noted that mutual services as a share of total turnover of export and import of commodities and services between our country and foreign states rose by 3.2% compared to the last year and made up 21.2%. This is related with the drop in import of commodities by $73.9 million on one hand, and, on the other hand, with the increase in import of services related with oil sector operations by $176.5 million.

***Profits***. The total turnover of receipts and payments under the "profits" item was $450.1 million. Most of this amount – 90.8% ($408.7 million) – accounts for payments made from Azerbaijan. Major portion of the funds paid abroad is related to repatriation of profits by foreign investors of the Azerbaijan International Operating Company under international oil contracts ($326.2 million), and salaries paid to non-residents ($44.8 million). It also should be noted that total profit-related receipts that entered the country in 2001 made up $41.5 million, which represents a slight decrease by $14.4 million compared to the year 2000. As a result, total deficit in the balance of profits made up $367.2 million, falling by $31.7 million if compared to the year 2000.

***Current transfers.*** Total volume of humanitarian, technical and other types of aid received from foreign countries by means of current transfers made up $66.3 million. Major portion of the total volume of financial aid was comprised by humanitarian imports. For instance, during 2001 total volume of humanitarian goods imported in the country made up $48.2 million. A surplus in mutual transfers by means of money orders of individuals, which are included into current transfer operations, made up $9.5 million. In total, current transfer operations resulted in surplus of $76.6 million.

***Capital account.*** The status of the capital account shows that in 2001 the flow of foreign capital, excluding oil bonus, increased by $56.4 million in comparison with the previous year and amounted to $1191.0 million.

It is a positive event that the share of all forms of foreign capital attracted into the economy of Azerbaijan in the GDP still remains high – 20.9%. It should be noted that direct investments – the most effective form of investment from the point of view of stimulation of economic growth

**Azərbaycan Respublikasına xarici kapital axınının funksional strukturu**

| | 2000-ci il | | 2001-ci il | | 2001-ci il 2000-ci ilə nisbətən, %-lə |
|---|---|---|---|---|---|
| | Mln. dollarla | Xüsusi çəkisi, %-lə | Mln. dollarla | Xüsusi çəkisi, %-lə | |
| Birbaşa investisiyalar | 588,3 | 47,7 | 813,2 | 67,9 | 138,2 |
| -neft sektoru | 452,6 | 36,7 | 712,0 | 59,5 | 157,3 |
| -digər sektorlar | 135,7 | 11,0 | 101,2 | 8,4 | 74,6 |
| Kreditlər və digər investisiyalar | 546,3 | 44,2 | 377,8 | 31,6 | 69,2 |
| -dövlət təminatlı kreditlər | 265,6 | 21,5 | 195,4 | 16,3 | 73,6 |
| -digər kreditlər və investisiyalar | 280,7 | 22,7 | 182,4 | 15,3 | 65,0 |
| Neft bonusu | 100,0 | 8,1 | 6,4 | 0,5 | 6,4 |
| **CƏMİ** | 1234,6 | 100,0 | 1197,4 | 100,0 | 97,0 |

investisiyalar formasında daxilolmalar ölkəyə cəlb olunmuş xarici kapitalın 67,9%-ni təşkil etmişdir. Birbaşa investisiyaların strukturunda neft sektorunun xüsusi çəkisi 87,6% təşkil etmişdir ki, bu da iri neft layihələri çərçivəsində büdcə xərcləri ilə əlaqədar səhmdar kapital şəklində daxil olmuş sərmayələrlə bağlıdır. Neft kontraktları ilə bağlı olmayan birbaşa investisiyaların respublikaya axını 2000-ci illə müqayisədə bir qədər azalsa da, xarici sərmayəli bir çox birgə müəssisələr, banklar və firmalar öz vəsaitlərini iqtisadiyyatımızın müxtəlif sahələrinə yönəltməkdədirlər. Belə sərmayələrin ümumi həcmi cari il ərzində 101,2 mln. $ təşkil etmişdir. Hesabat dövründə milli iqtisadiyyatımıza yönəldilmiş xarici sərmayələrin ümumi həcminin 31,6%-ni digər investisiyalar olan qısa və uzunmüddətli kreditlər və ssudalar, ticarət kreditləri, avans ödənişləri, depozitlər və s. valyuta əməliyyatları şəklində daxil olmuş vəsaitlər təşkil edir. 2001-ci ildə bu göstərici 377,8 mln. $ olmuşdur. Digər investisiyalar kateqoriyasına daxil olan kreditlər və ssudalar bölməsində dövlət təminatı əsasında beynəlxalq maliyyə və digər təşkilatlar tərəfindən ayrılmış kreditlərin istifadə olunmuş hissəsi öz əksini tapmışdır. Belə ki, bu təşkilatlar tərəfindən ayrılmış vəsaitin hesabat dövründə 195,4 mln. $ istifadə olunmuşdur ki, bu da əsas etibarı ilə investisiya layihələrinin maliyyələşdirilməsinə yönəldilmişdir.

***Ehtiyat aktivləri.*** Azərbaycanın ixrac potensialının durmadan artımı və ölkə iqtisadiyyatına yönəldilmiş xarici sərmayələr tədiyə balansının cari əməliyyatlar hesabının kəsirinin tam maliyyələşdirilməsini və ölkənin xarici valyuta ehtiyatlarının artmasını təmin etmişdir. Bunun nəticəsində isə 2002-ci il yanvar ayının 1-nə olan vəziyyətə görə “Neft Fondunun aktivləri” də daxil olmaqla ölkənin formalaşmış xarici dönər valyutada ehtiyatları beynəlxalq normalardan xeyli artıq həcmdə idxalı maliyyələşdirməyə imkan verir. Bütövlükdə Azərbaycanın xarici iqtisadi fəaliyyətinin yekunları xarici tərəfdaşların ölkəmizə olan etimadının artdığını göstərir.

**Functional structure of foreign capital flow into the Azerbaijan Republic**

| | 2000 | | 2001 | | 2001 Compared to 2000,% |
|---|---|---|---|---|---|
| | $ Million | Share, in % | $ Million | Share, in % | |
| Direct investments | 588,3 | 47,7 | 813,2 | 67,9 | 138,2 |
| -oil sector | 452,6 | 36,7 | 712,0 | 59,5 | 157,3 |
| -other sectors | 135,7 | 11,0 | 101,2 | 8,4 | 74,6 |
| Loans and other investments | 546,3 | 44,2 | 377,8 | 31,6 | 69,2 |
| government guarantee loans | 265,6 | 21,5 | 195,4 | 16,3 | 73,6 |
| -other credits and investments | 280,7 | 22,7 | 182,4 | 15,3 | 65,0 |
| Oil bonus | 100,0 | 8,1 | 6,4 | 0,5 | 6,4 |
| **TOTAL** | 1234,6 | 100,0 | 1197,4 | 100,0 | 97,0 |

– accounted for 67.9% of the foreign capital attracted into the country. The share of oil sector in the structure of direct investments accounted for 87.6 %, which was due to investments made in the form of share capital, related to budget expenses within the framework of large oil projects. While the inflow of direct investments that are not related to oil contracts dropped somewhat compared to the year 2000, many foreign investment joint ventures, banks and companies continued to invest in various sectors of Azerbaijan's economy. The total volume of such investments during the current year was $101.2 million.

During the reporting period, other investments, such as short- and long-term loans and credits, trade loans, advance payments, deposits, and other receipts in the form foreign currency operations, accounted for 31.6% of the total volume of foreign investments made into the national economy. During 2001, this indicator was $377.8 million.

Disbursed portion of credits issued by international financial institutions and other organizations under the government guarantee was reflected in the credits and loans section that is included in the "other investments" category. Thus, out of the funds provided by those organizations, $195.4 million was disbursed during the reporting period mainly to finance investment projects.

***Reserve assets.*** Continuous growth of export potential of Azerbaijan, as well as foreign investments made to the country's economy, ensured full financing of current account deficit in the balance of payments, and growth of the country's foreign exchange reserves. As a result, hard currency reserves formed in the country as of January 1, 2002, including the Oil Fund's assets, provide for capacity to finance imports at the volumes that are much higher than international standards.

In general, the outturns of Azerbaijan's foreign economic operations show that the confidence of foreign partners in our country has increased.

2001-ci ildə ölkəmiz 160 xarici dövlət ilə iqtisadi əlaqələr yaratmışdır.

Makroiqtisadi vəziyyətin sabitləşməsi, özəl sektorun möhkəmləndirilməsinə yönələn struktur islahatları, eləcə də iqtisadiyyatın neft sektorunun daha da inkişaf etdirilməsi Azərbaycanın beynəlxalq maliyyə mərkəzlərində yüksək investisiya reytinqini alması üçün geniş imkanlar yaradır.

### 1.3 Dünya iqtisadiyyatı və beynəlxalq maliyyə bazarları

2001-ci ildə dünya maliyyə bazarında baş verən hadisələrə təsir göstərən əsas amil ABŞ-da iqtisadi böhranın baş verməsi və bunun bütün dünya iqtisadiyyatına təsiri olmuşdur. 2001-ci ilin əvvəllərində ABŞ-da işsizliyin səviyyəsinin artması, istehsal aktivliyi indeksi və istehlakçı etimadı indeksinin aşağı düşməsi müşahidə edilməyə başlandı. Bütün bunlar aparıcı fond indekslərinin aşağı düşməsi ilə nəticələndi.

Avropada iqtisadi artım əsasən xarici tələbdən asılı olduğundan ABŞ-dakı tənəzzül avrozonadakı yüksəliş tempinə də öz mənfi təsirini göstərdi. Bunun nəticəsində Avropa ölkələrində də iqtisadi göstəricilərin pisləşməsi müşahidə olunmağa başlandı. İqtisadi artım tempi İngiltərədə aşağı düşdü.

Yaponiyada da ÜDM-in, banklar tərəfindən kredit qoyuluşlarının və xarici ticarət balansının profisitinin dinamikası ölkənin yenidən iqtisadi böhrana qədəm qoyduğunu göstərdi. İl ərzində ümumdünya miqyasında inflyasiyanın aşağı düşməsi meyli güclənmişdir. Belə bir şəraitdə dünya ölkələrinin mərkəzi bankları öz pul siyasətlərini əhəmiyyətli olaraq yumşatmaq taktikasını seçmişlər. Mərkəzi bankların uçot dərəcələrini aşağı salmaları ilə əlaqədar olaraq dünyanın qabaqcıl ölkələrində faiz dərəcələrinin ümumi səviyyəsi də aşağı düşmüşdür.

2001-ci ildə dünyanın inkişaf etməkdə olan dövlətlərində iqtisadi artım templərinin müəyyən qədər səngiməsi müşahidə olunsa da, onun səviyyəsi inkişaf etmiş dövlətlər ilə müqayisədə çox yüksək olmuşdur.

Hesabat dövründə Azərbaycanın ən yaxın iqtisadi tərəfdaşlarından olan Türkiyə Respublikasında 2001-ci ilin fevral ayında maliyyə böhranı baş verdi. Birjalarda fond indeksləri kəskin surətdə aşağı düşdü. İndekslərin aşağı düşməsi nəticəsində yerli müəssisələrin səhmlərinin xeyli hissəsini öz portfelində saxlayan banklar kəskin likvidlik problemi ilə üzləşdilər. Nəticədə ölkənin maliyyə bazarlarında böyük xüsusi çəkiyə malik olan xarici investorlar təcili surətdə lirədə ifadə olunmuş aktivlərdən imtina edərək əldə olunmuş vəsaiti dollara konvertasiya edib ölkəni tərk etməyə başladılar. Bu səbəbdən türk lirəsi kəskin devalvasiyaya uğradı.

2001-ci ildə də qabaqcıl ölkələrdə baş verən böhran meylləri dünya bazarında neftin qiymətinin də aşağı düşməsi ilə nəticələndi. Belə ki, 2001-ci ildə dünya bazarında bir barrel neftin orta qiyməti I rübdə 24,4, II rübdə 25,6, III rübdə 24,2 ABŞ dolları olmuşdursa, IY rübdə 18,3, dekabr ayında isə hətta 17,6 dollara düşmüşdür. Ümumilikdə, 2001-ci ildə dünya bazarında neftin orta qiyməti 23,1 ABŞ dolları təşkil etmişdir ki, bu da 2000-ci illə müqayisədə (27,6 ABŞ. dolları) 16,3% aşağı olmuşdur.

During 2001, the Azerbaijan Republic established economic relations with 160 countries. Stabilization of macroeconomic situation, structural reforms aimed at strengthening of private sector, as well as further development of the economy's oil sector, give Azerbaijan a good chance to get high investment rating among international financial centers.

### 1.3. World economy and international financial markets

The main factor influencing the developments in the world financial market in 2001 was economic recession in the United States and its impact on the world economy as a whole. In the beginning of 2001, the United States began to face rise of unemployment rate, as well as drop in production activity and consumer confidence indices. All of these resulted in drop of leading stock indices.

As economic growth in Europe mainly depends on foreign demand, the recession in the United States also had its negative impact on the growth rate in Eurozone. As a result, economic indicators in European countries also began to deteriorate. Economic growth rate in the UK decreased.

In Japan, the dynamics of GDP and those of bank lending and foreign trade balance surplus showed that the country again is making a step toward economic recession.

The global inflation downtrend became stronger during the year. Under such conditions, central banks in countries across the world chose the strategy of significant softening of their own monetary policies. Due to reduction of refinancing rates by central banks, the general level of interest rates in the world's leading countries dropped as well.

Although a certain slowdown it the economic growth rate of developing countries was observed in 2001, its level still was much higher than that of developed countries.

During the reporting period, in February 2001, financial crisis has stroke Turkey – Azerbaijan's closest economic counterpart. Stock exchange indices fell rapidly. As a result of drop in indices, banks that kept large portions of local companies' shares in their portfolios faced severe liquidity problems. As a result, foreign investors accounting for large share in the country's financial markets immediately began to leave the country while getting rid of assets denominated in Turkish lira and converting those funds into US dollars. Due to this reason, Turkish lira faced rapid devaluation.

Crisis tendencies that took place in the world's leading countries in 2001 resulted in the drop of oil prices in the world market as well. For instance, while the price of one barrel of oil in the world market was $24.4 in the I quarter, $25.6 in the II quarter, and $24.2 in the III quarter of 2001, in the IV quarter same year the price fell to $18.3 and even to $17.6 in December. In total for 2001, the average oil price in the world market was $23.1, which represents a 16.3 % drop if compared to the year 2000 ($27.6).

# 2. PUL-KREDİT SİYASƏTİ. MƏQSƏDLƏR, YEKUNLAR

## 2.1. 2001-ci il Pul-kredit siyasətinin məqsədləri və yekunları

***2001-ci il üçün pul-kredit siyasətinin başlıca istiqamətləri.*** Milli Bankın hər il üçün fəaliyyətinin əsas istiqamətləri "Azərbaycan Respublikasının Milli Bankı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq işlənən pul-kredit siyasətinin başlıca istiqamətlərində təcəssüm olunur.

2001-ci il üçün də həmin qaydada pul-kredit siyasətinin başlıca istiqamətləri işlənmişdir.

Əvvəlki illərdə olduğu kimi 2001-ci ildə də yeridilən pul-kredit siyasətinin əsas məqsədini ölkədə bərqərar olmuş makroiqtisadi sabitliyini qorumaq, milli valyutanın məzənnəsini çevik tənzimləməklə onun sabitliyini təmin etmək, iqtisadiyyatın pulla təminatını yaxşılaşdırmaq, beynəlxalq normalara uyğun xarici valyuta ehtiyatlarını qoruyub saxlamaq və artırmaq, bank islahatlarını daha da dərinləşdirmək təşkil etmişdir.

Qeyd olunan məqsədlərə nail olmaq üçün pul parmetrlərinin dinamikasını nəzarətdə saxlamaq, pul-kredit bazarının çevik tənzimlənməsi nəzərdə tutulurdu. Bu məqsədlə istiqamətlərdə mərkəzləşdirilmiş kredit resursları üzrə faizlərin tənzimlənməsi, məcburi ehtiyat normalarının çevik dəyişdirilməsi, valyuta bazarının tənzimlənməsi və qiymətli kağızlar bazarında əməliyyatlar kimi alətlərdən istifadə olunması göstərilirdi. Açıq bazar əməliyyatlarının genişləndirilməsi məqsədilə REPO və əks-REPO əməliyyatlarına başlamaq sənəddə öz əksini tapmışdır.

Pul-kredit siyasətinin vacib tərkib hissəsi olan çevik məzənnə siyasətinin aparılması və onun yumşaldılmasının davam etdirilməsi nəzərdə tutulmuşdur. Valyuta bazarında özünütənzimləmə fəaliyyət mexanizminin bərqərar olması və bu mexanizmin təkmil səviyyəyə çatmasının sürətlənməsini nəzərə alaraq Milli Bank tənzimlənən üzən məzənnə rejimini 2001-ci ildə də yeridiləcək məzənnə siyasətinin konseptual əsası kimi qəbul etmişdir. Bundan başqa istiqamətlərdə valyuta rejiminin liberallaşdırılmasının davam etdirilməsi də öz əksini tapmışdır.

2001-ci il üçün pul-kredit siyasətinin başlıca istiqamətlərində bank sisteminin daha da möhkəmləndirilməsi tədbirlərinə xüsusi yer verilmişdir. Bank sistemini möhkəmləndirməyin strateji istiqamətləri kimi dövlət banklarının özəlləşdirilməyə hazırlanmasının davam etdirilməsi, özəl bankların yenidən qurulmasının sürətləndirilməsi, həmçinin bank sisteminin səmərəli fəaliyyəti üçün infrastrukturun təkmilləşdirilməsi göstərilmişdir.

***2001-ci il pul-kredit siyasətinin əsas yekunları.*** 2001-ci il üçün müəyyən olunmuş pul-kredit siyasətinin başlıca istiqamətlərinə uyğun olaraq Milli Bank 2001-ci ildə məqsədyönlü işlər aparmışdır.

Qarşıda qoyulan məqsədlərə nail olunmuş və 2,5%-lik inflyasiya proqnozlaşdırıldığı halda onun faktiki səviyyəsi 1,3% təşkil etmişdir. 2001-ci ildə monetar amillərin inflyasiya tempində orta illik xüsusi çəkisi 51,3%, qeyri-monetar amillərin 37,5%, mövsümi amillərin isə 13% təşkil etmişdir. Ümumiyyətlə, son altı

# 2. MONETARY POLICY. OBJECTIVES AND RESULTS

## 2.1. Objectives and results of the monetary policy in 2001

***Main guidelines of the monetary policy for 2001.*** Main directions of the National Bank's activities are embodied in the main guidelines of the monetary policy developed in accordance with the law of the Azerbaijan Republic "On the National Bank of the Azerbaijan Republic".

Main guidelines of the monetary policy for 2001 were developed in the same way. As during previous years, the main goals of the monetary policy for 2001 were to protect macroeconomic stability achieved in the country, to ensure stability of national currency through prompt regulation of its exchange rate, to improve money supply to the economy, to preserve and increase the foreign exchange reserves in compliance with international standards, and to further expand banking reforms.

In order to achieve the above-mentioned goals, it was envisaged to keep control over dynamics of money parameters, and to regulate monetary market in a flexible way. For this purpose, the main policy directions envisaged use of such instruments as regulation of interest rates for centralized credit resources, flexible change of the required reserve ratios, regulation of foreign exchange market, and operations at securities markets. Commencement of repurchase and reverse repurchase operations was stipulated in the document in order to enhance operations in the open market.

In was envisaged to conduct flexible exchange rate policy being an important component of the monetary policy, and to continue softening of that policy. Given that self-regulating operating mechanism is established in the foreign exchange market and that the process of bringing this mechanism to a complete level is accelerated, the National Bank adopted the regulated floating exchange rate policy conducted in 2001 as a principal concept. In addition, continuation of liberalization of the foreign exchange regime was also reflected in main policy directions.

Main guidelines of the 2001 monetary policy specifically considered measures aimed at further strengthening of the banking system. Continuing the preparation of state-owned banks for privatization, accelerating the restructuring of private banks, as well as improving the infrastructure for efficient operation of the banking system, were shown as strategic directions of banking system strengthening.

***Main results of the monetary policy for 2001.*** In 2001, the National Bank took relevant measures in accordance with main directions of the monetary policy formulated for 2001.

Goals set have been reached, and the actual inflation rate was 1.3 % against forecasted 2.5%. In 2001, the average annual share of monetary factors in the inflation rate was 51.3%, while the relevant shares of non-monetary and seasonal factors were 37.5% and 13% respectively. Generally, inflation rate in the country has not been exceeding 2% for the last six years, and this complies with European standards.

ildə ölkədə inflyasiyanın orta illik səviyyəsi 2%-i ötmür ki, bu da Avropa standartlarına uyğundur. Milli Bank tərəfindən məzənnə siyasətinin yumşaldılması 2001-ci ildə də davam etdirilmişdir və il ərzində manatın ABŞ dollarına nəzərən məzənnəsi 4,6% korreksiya edilmiş və 1 yanvar 2002-ci il tarixinə 4775 manat təşkil etmişdir. Milli valyutamızın - manatın xarici dönərli valyutalara nisbətdə orta illik dəyişməsi son yeddi ildə 1%-dən də aşağı olmuşdur.

**2001-ci ildə pul kütləsi və pul bazasının dəyişimi**

| | 01.01.2001 | 01.01.2002 | İl ərzində dəyişmə, mlrd. manatla |
|---|---|---|---|
| Geniş mənada pul kütləsi (xarici valyutada əmanət və depozitlər daxil olmaqla mlrd. manat) | 2548,7 | 3434,1 | 885,4 |
| Pul kütləsinin artımı, %-lə | | 34,7 | |
| O cümlədən, manat kütləsi,<br>Manatla pul kütləsinin artımı, %-lə | 1629,1 | 1755,6<br>7,8 | 126,5 |
| Pul ehtiyatı, mlrd. manat<br>Pul ehtiyatlarının artımı, %-lə | 1765,4 | 1792<br>1,5 | 26,6 |
| O cümlədən manat ehtiyatı<br>Manat ehtiyatının artımı, %-lə | 1541,9 | 1680,6<br>9,0 | 138,7 |

2001-ci il üçün inflyasiyanın səviyyəsi və manatın xarici dönərli valyutalara nəzərən məzənnəsi üzrə qoyulan məqsədlərə çatmaq üçün ilin sonuna nəzərdə tutulan pul parametrlərinin həcminə ciddi riayət olunmuşdur. Belə ki, xalis daxili aktivlərin maksimum həddi üzrə müəyyən edilmiş -100 mlrd. manatlıq proqram məbləği faktiki olaraq -253,6 mlrd. manat, dövlət idarəetmə sektoruna xalis kreditlər üzrə rəqəmlər isə uyğun olaraq, 190 mlrd. manat və 116,8 mlrd. manat təşkil etmişdir. Xalis beynəlxalq aktivlərin həcmi minimum 406 mln. dollar proqram səviyyəsinə qarşı faktiki olaraq 429,8 mln. dollar olmuşdur.

Milli Bankın strateji məqsədlərindən biri iqtisadiyyatın real artımına adekvat olaraq və mövcud maliyyə sabitliyinə xəta yetirmədən pul təklifinin də artırılmasına monetar zəmin yaratmaqdan ibarətdir. 2001-ci ildə iqtisadiyyata pul təklifi üzrə müəyyən irəliləyişlər əldə olunmuşdur.

Belə ki, manatla pul kütləsi 7,8% artaraq 1755,6 mlrd. manata çatmış, orta illik pul kütləsi isə 11,6% artaraq 1692,4 mlrd. manat təşkil etmişdir. Eyni zamanda manatla pul bazası da 9% artmış, orta illik manatla pul bazası isə 15,2% artaraq 1611,3 mlrd. manat təşkil etmişdir.

Qiymətlərin dinamikasını nəzərə alsaq manatla pul kütləsi 6,4%, orta illik pul kütləsi isə 10,1% artmışdır. Pul kütləsinin qiymətləri qabaqlama əmsalı 1,14-dən 1,06-ya, onun ÜDM-i qabaqlama əmsalı isə 1,06-dən 0,98-ə enmişdir. Göründüyü kimi pul kütləsinin iqtisadi artımı qabaqlama əmsalı qiymətləri qabaqlama əmsalına nisbətən daha çox aşağı düşmüşdür. Bu o deməkdir ki, pul kütləsinin artımı qiymətlərdən daha çox iqtisadi artıma xidmət etmişdir. Başqa sözlə desək, iqtisadi subyektlər pul kütləsinin artmasına istehsalın həcminin daha yüksək templə artması ilə reaksiya vermişlər. Ümumiyyətlə, son altı ildə manatla pul kütləsinin artım tempi iqtisadi artım tempindən təxminən 2 dəfə çox olmuşdur. Bu da maliyyə sabitliyinə xələl gətirmədən iqtisadiyyatın pulla təminatı-

Softening of exchange rate policy by the National Bank continued in 2001 as well; during the year, the exchange rate of Manat versus US dollar was adjusted by 4.6% and equaled 4775 AZM as of January 1, 2002. The average annual change in the exchange rate of Manat versus hard foreign currencies has been less than 1% during the last seven years.

In order to achieve objectives set for 2001 in respect to inflation rate and exchange rate of Manat versus hard foreign currencies the volume of the monetary parameters envisaged for the year-end was strictly followed. Thus, manat 100.0-billion program amount set as the maximum limit for net domestic assets was actually manat 253.6 billion, while the figures for net credits to public sector were respectively manat 190 billion and manat 116.8 billion. The volume of net international assets, as compared to minimum planned level of $406 million, actually made up $429.8 million.

One of the strategic objectives of the National Bank is to create monetary basis for increasing money supply in conformity with the real economic growth, while not putting the existing financial stability under danger. In 2001, certain progress was achieved in the field of money supply to the economy.

Thus, manat money supply increased by 7.8% and reached manat 1755.6 billion, while the average annual money supply increased by 11.6% and made up manat 1692.4 billion. At the same time, manat base money increased by 9%, while the average annual manat base money increased by 15.2% and made up manat 1611.3 billion.

If we take into account price dynamics, manat money supply increased by 6.4%, while average annual money supply increased by 10.1%. The ratio, by which money supply is ahead of prices, fell from 1.14 to 1.06, while the ratio, by which money supply is ahead of GDP, fell from 1.06 to 0.98. As we can see, the ratio, by which money supply is ahead of economic growth, fell more than the ratio, by which money supply is ahead of prices. It means that the growth of money supply made bigger contribution to economic growth than prices. In other words, economic agents responded to the growth of money supply by further increasing the growth rate of production volumes. In general, within the last six years the growth rate of manat money supply has been about 2 times higher than the economic growth rate. This in fact shows the existence of monetary basis for further improvement of money supply to the economy without damaging the financial stability.

**Changes in money supply and money market in 2001**

| | 01.01.2001 | 01.01.2002 | Change during the year, billion manats |
|---|---|---|---|
| Broad money supply (including deposits and savings in foreign currency), billion manats | 2548,7 | 3434,1 | 885,4 |
| Money supply growth, % | | 34,7 | |
| Including, manat money supply<br>Manat money supply growth, % | 1629,1 | 1755,6<br>7,8 | 126,5 |
| Reserve money, billion manats<br>Reserve money growth, % | 1765,4 | 1792<br>1,5 | 26,6 |
| Including, manat reserves<br>Manat reserves growth, % | 1541,9 | 1680,6<br>9,0 | 138,7 |

**Monetar sektorun başlıca indikatorlarının dəyişməsi, %-lə**




nın daha da yaxşalaşdırılması üçün monetar zəminin mövcud olmasını göstərir.

Manatla qeyri-nağd pul kütləsi əsasən müddətli əmanət və depozitlərin hesabına artmışdır. Belə ki, il ərzində müddətli əmanət və depozitlər 32% artmışdır ki, bu da milli valyutaya və eləcə də milli bank sisteminə etimadın tədricən artması prosesinin davam etdiyini göstərir. Qeyd edək ki, son vaxtlar bank sisteminin yenidən qurulması və bank infrastrukturunun, xüsusən də ödəniş sisteminin təkmilləşdirilməsi, habelə maliyyə bazarlarının inkişaf etdirilməsi istiqamətində görülən işlərin pul kütləsinin genişlənməsinə, bankların pul yaratmaq qabiliyyətinin yüksəlməsinə də müsbət təsir göstərəcəyi gözlənilir.

Milli Bank tərəfindən pul bazasının artırılması fonunda banklar tərəfindən iqtisadiyyata kredit ekpansiyasının genişlənməsi davam etmişdir. Belə ki, 2001-ci ildə kredit qoyuluşlarının həcmi 4,2% artaraq 2429,8 mlrd. manat təşkil etmişdir. Orta illik kredit qoyuluşları isə 15,7% artaraq 2381,2 mlrd. manat təşkil etmişdir. Hesabat dövrü ərzində qısamüddətli kreditlərə görə faiz dərəcələri əhəmiyyətli dərəcədə dəyişməmiş, uzunmüddətli kreditlərə görə faiz dərəcələri isə aşağı düşmüşdür.

Ümumiyyətlə, 2001-ci ildə pul-kredit göstəricilərinin əvvəlki ilə nisbətən yaxşılaşması tendensiyası davam etmişdir. Pul-kredit göstəricilərinin daha da yaxşılaşması bank islahatlarının dərinləşdirilməsini, əhalinin banklara olan inamının bərpa olunmasını, ödəməmələr probleminin həllini, maliyyə-büdcə intizamına riayət edilməsini, həmçinin real sektorda struktur dəyişikliklərinin sürətləndirilməsini tələb edir.

***Monetar idarəetmənin təkmilləşdirilməsi.*** Gələcəkdə də pul-kredit siyasətinin son hədəf parametri illik inflyasiya tempinin məqbul səviyyədə saxlanılmasından ibarət olacaqdır. Bu məqsədlə yeridilən pul-kredit siyasətinin inflyasiya proseslərinə maksimal nəzarət baxımından müvafiq modelinin işlənməsi üzrə Milli Bank tərəfindən məqsədyönlü iş aparılır.

Məzənnə siyasəti istiqamətində Milli Bankın əsas vəzifəsi inflyasiya proseslərini nəzarət altında saxlamaqla və milli valyutanın məzənnəsinin sabitliyini qorumaqla ölkənin ixrac sekto-

**Change in key indicators of the monetary sector, %**




Non-cash money supply in manats increased mainly on the account of time savings and deposits. Thus, during the year, time savings and deposits increased by 32%, which shows that the process of gradual growth of trust in the national currency, as well as in the national banking system, continues. It should be noted that actions taken lately in the field of the banking system restructuring, improvement of the banking infrastructure, especially the payment system, as well as promotion of financial markets, are expected to make positive impact on enhancement of money supply, and improvement of banks' money generating capacity.

While the National Bank increased the base money, banks continued to expand lending to the economy. Thus, in 2001, the volume of lending increased by 4.2% and made up manat 2429.8 billion. Average annual lending grew by 15.7% and made up manat 2381.2 billion. During the reporting period, the interest rates on short-term loans did not change significantly, while the interest rates on long-term loans decreased.

As a whole, the tendency of improvement of monetary indicators, as compared to the previous year, continued in 2001. Further improvement of monetary indicators requires strengthening of banking reforms, restoration of the people's trust in banks, solution of the non-payments problem, compliance with fiscal discipline, as well as acceleration of structural adjustments in the real sector.

***Improvement of monetary management.*** In future, final target parameter of the monetary policy will also comprise keeping the annual inflation rate at acceptable level. For this purpose, the National Bank is taking relevant actions to develop an appropriate model of the monetary policy that would allow for maximum control over inflation processes. As for exchange rate policy, the main goal of the National Bank is to create incentives for development of the country's export-oriented and import-substituting sectors by keeping inflation processes under control and protecting stability of the national currency's exchange rate. This policy will also give an opportunity to keep the country's strategic foreign exchange reserves at the international standards level and to increase those reserves.

runun və idxalı əvəz edən sahələrin inkişafına stimul yaratmaqdan ibarətdir. Bu siyasət eyni zamanda ölkənin strateji valyuta ehtiyatlarının beynəlxalq standartlara uyğun səviyyədə təmin olunması və artırılmasına imkan verəcəkdir.

Qoyulmuş vəzifələrə nail olmaq üçün monetar idarəetmə institutsional baxımdan daha da təkmilləşdiriləcəkdir. Hal-hazırda Milli Bank güclü tədqiqat bazasının yaradılmasına xüsusi diqqət verir. Bu məqsədlə bütün hədəf göstəricilərinin ekonometrik metodlar tətbiq edilməklə proqnozlaşdırılması həyata keçirilir. Artıq inflyasiya və pul tarazlığı modellərinin qurulması və tətbiqi başa çatdırılmaq üzrədir. Qarşıdakı dövrdə məzənnə siyasətinin əsasını təşkil edən tədiyyə balansının metodoloji bazası daha da təkmilləşdiriləcək, onun əsas göstəricilərinin proqnozlaşdırılması işinə başlanılacaqdır. Tənzimləmə üzrə düzgün siyasi qərarların qəbul olunmasının vacib şərti kimi mükəmməl informasiya bankının formalaşdırılması üzrə dünya iqtisadiyyatında, o cümlədən MDB məkanında, ölkə iqtisadiyyatında gedən proseslər barədə statistik bazanın yaradılması, bank statistikası informasiyasının avtomatik rejimdə toplanması, emalı və istifadəsi prioritet vəzifələrdəndir.

Ölkədə inkişaf edən maliyyə bazarının həratinə və yaranmış makroiqtisadi vəziyyətin xarakterinə adekvat olaraq Milli Bank pul-kredit alətlərinin çeşidinin genişləndirilməsi və onların çevik tətbiqinə xüsusi diqqət yetirəcəkdir.

Qərb standartlarına uyğun olaraq Milli Bank klassik tənzimləmə metodlarının tətbiqinin genişlənməsinə, xüsusi olaraq açıq bazarda əməliyyatların aparılmasına xüsusi diqqət verəcəkdir. Bu məqsədlə maliyyə bazarının, onun kredit və qiymətli kağızlar bazarı kimi seqmentlərinin inkişafı təşviq ediləcəkdir. Bu sahədə tətbiq edilən alətlərin (mütəşəkkil kredit bazarı, repo, əks-repo əməliyyatları və.s) çeşidi daha da genişləndiriləcəkdir. Yüksək tərəqqi etmiş valyuta bazarında da qarşıdakı dövrlərdə forvard və svop kimi yeni əməliyyatların aparılması nəzərdə tutulur.

## 2.2 Pul-kredit siyasətinin tənzimləmə alətləri

Milli Bank 2001-ci ildə də pul-kredit bazarını banklararası kredit hərraclarında, valyuta və

**1995-2001-ci illərdə inflyasiyanın və mərkəzləşdirilmiş kreditlərə görə faiz dərəcəsinin dəyişməsi**



In order to achieve the goals set, monetary management will undergo further institutional improvement. Currently, the National Bank is paying special attention to creation of a strong research base. For this purpose, forecasting of all target indicators is carried out by using econometric methods. Creation and application of inflation and money balancing models is about to complete.In the forthcoming period, the methodological framework of the balance of payment, which constitutes the fundament for the exchange rate policy, will also be improved, and the work on forecasting of its key indicators will begin.

For the purpose of creation of a full-fledged data bank, which is an important condition for adoption of correct policy decision in the field of regulation, the creation of statistical base covering the processes that take place in the world economy, including the CIS zone, and the national economy, as well as the electronic collection, processing, and use of banking statistical data, are placed among priority goals.

The National Bank will pay special attention to expansion of the range of monetary instruments and prompt application of those instruments consistent with the status of financial market developing in the country and the macroeconomic situation.

The National Bank will pay special attention to enhancement of application of classic regulatory methods, especially operations in the open market, in accordance with western standards. For this purpose, development of financial market and of its segments, such as credit and securities markets, will be promoted. The range of instruments (organized credit market, repurchase and reverse repurchase operations, etc.) applied in this field will be further expanded. In the forthcoming period, it is also envisaged to introduce new operations, such as forward and swap, in the well-developed foreign exchange market.

## 2.2. Instruments of monetary policy

In 2001, the National Bank continued to regulate the monetary market through participation in interbank credit auctions, foreign exchange and state securities markets, as well as through required reserve ratios.

As in previous years, centralized credits were one of the means regulating the money supply. In 2001, the National Bank continued to carry out

**Change in inflation and interest rate on centralized credits for the period of 1995-2001**



dövlət qiymətli kağızlar bazarında iştirak etmək, həmçinin məcburi ehtiyat normaları vasitəsilə tənzimləmişdir.

Mərkəzləşdirilmiş kreditlər əvvəlki illərdə olduğu kimi pul təklifini tənzimləməyin vasitələrindən biri olmuşdur. Milli Bank 2001-ci ildə də kredit təşkilatlarının yenidən maliyyələşdirilməsini mərkəzləşdirilmiş kredit resurslarının auksion əsasında yerləşdirilməsi yolu ilə həyata keçirmişdir. Mərkəzləşdirilmiş resurslar kommersiya banklarına yalnız müəyyən edilmiş pul proqramı çərçivəsində ayrılmışdır. 1999-cu ilin noyabr ayının 1-dən 10%-ə endirilmiş mərkəzi uçot dərəcəsi hesabat dövründə dəyişməz qalmışdır. Real faiz dərəcəsi 8,7% təşkil etmişdir.

Pul-kredit bazarının tənzimlənməsində açıq bazar əməliyyatlarının da rolu artmaqdadır. Qiymətli kağızlar bazarında əməliyyatlar bir tərəfdən dövlət büdcəsinə vəsait cəlb etmək vasitəsi, digər tərəfdən isə Milli Bank üçün pul-kredit siyasətinin həyata keçirilməsi, pul-kredit bazarının tənzimlənməsi aləti rolunu oynamışdır.

Milli Bankın DQİV bazarında iştirakı isə bank sistemində qısamüddətli likvidliyin tənzimlənməsi məqsədilə həyata keçirilmişdir. İl ərzində Milli Bank 34,4 mlrd. manat məbləğində DQİV almışdır.

Eyni zamanda Milli Bank tərəfindən DQİV ilə əks/REPO əməliyyatı aparılmışdır. Əməliyyatın həcmi 12 mln. manat, orta ölçülmüş faiz dərəcəsi isə 16,58% təşkil etmişdir. Həcminə görə keçirilmiş əməliyyat kiçik olsa da, bu yaxın gələcəkdə bankların qısamüddətli likvidliyinin səmərəli tənzimlənməsi istiqamətində atılmış ilk addım olmuşdur.

Azərbaycanda qiymətli kağızların təkrar bazarı inkişaf etdikcə açıq bazarda əməliyyatlardan daha geniş miqyasda istifadə etmək imkanları yaranacaqdır. Həm də gələcəkdə Milli Bank açıq bazarda əməliyyatlar aparmaq üçün təkcə hökumətin deyil, eyni zamanda özünün buraxdığı qiymətli kağızlardan da istifadə etməyi nəzərdə tutur.

## 2.3 Valyuta siyasəti və qızıl-valyuta ehtiyatlarının idarə olunması

***Məzənnə siyasəti.*** Milli Bank tərəfindən ma-

**Manatın ABŞ dollarına qarşı nominal və real məzənnəsinin dinamikası**
**1 USD = AZM**



refinancing of credit institutions by placing centralized credit resources at the auction. Centralized resources were provided to commercial banks only within the framework of formulated monetary program.

The centralized discount rate, which was reduced to 10% since November 1, 1999, remained unchanged during the reporting period. Real interest rate was 8,7 %.

The role of open market operations in regulating monetary market has also increased. Operations at the securities market have played a role of means for attracting funds to the state budget, on one hand, and as an instrument for implementing monetary policy for the National Bank and monetary market regulation, on the other hand.

Operations of the National Bank in the Treasury Bills market were carried our for the purpose of regulation of short-term liquidity in the banking system. During the year, the National Bank purchased manat 34.4 billion worth of Treasury Bills. At the same time, the National Bank carried out reverse repurchase operation with the Treasury Bills. The volume of the operation was manat 12 million, while the estimated average interest rate was 16.58%. Although the volume of the operation was small, this was the first step made toward efficient regulation of banks' short-term liquidity.

With development of a secondary market for securities in Azerbaijan, the chances to use larger-scale open-market operations will increase. Additionally, the National Bank envisages use of its own securities in future open-market operations, along with securities issued by the government,.

### 2.3. Foreign exchange policy and management of gold and foreign exchange reserves

***Exchange rate policy.*** In 2001, the National Bank continued to adjust the exchange rate policy, which was aimed at development of export-oriented and import-substituting sectors without damaging the financial stability, and envisaged protection and increase of the foreign exchange reserves.

During the year, the exchange rate of Manat

**Dynamics of Nominal and Real Exchange Rates of Manat to US Dollars, 1 USD = AZM**



liyyə sabitliyinə xələl gətirmədən idxalı əvəz edən və ixrac sahələrinin inkişafına yönəldilmiş, valyuta ehtiyatlarının qorunmasını və artırılmasını nəzərdə tutan məzənnə siyasətinin korreksiyası 2001-ci ildə də davam etdirilmişdir. İl ərzində manatın ABŞ dollarına nəzərən məzənnəsi 210 manat və ya 4,6% korreksiya edilmiş və 1 yanvar 2002-ci il tarixinə 4775 manat təşkil etmişdir.

Azərbaycan iqtisadiyyatının beynəlxalq rəqabət qabiliyyətinin dövr ərzində vəziyyətinin göstəricisi kimi manatın ABŞ dollarına nisbətən real ikitərəfli məzənnəsinin dəyişməsinə nəzər yetirmək məqsədəuyğun olardı. Hesablamalar göstərir ki, 2001-ci ildə manatın ABŞ dollarına qarşı orta aylıq nominal məzənnəsi 1995-ci ilin dekabr ayının orta aylıq nominal məzənnəsinə nisbətən 7.3% korreksiyaya uğradığı halda, onun real məzənnəsinin dəyişim indeksi 123% təşkil etmişdir. Beləliklə 2001-ci ildə manatın ABŞ dollarına qarşı real ikitərəfli məzənnəsi Azərbaycanın beynəlxalq rəqabət qabiliyyətinin 1995-2001-ci illərdə yaxşılaşmasına şərait yaratmışdır.

***Valyuta bazarı.*** Milli Bank tərəfindən həyata keçirilən valyuta siyasətinin başlıca məqsədlərindən biri daxili valyuta bazarının inkişafının təmin edilməsi və bu fonda özünü tənzimləyə bilən valyuta bazarının yaradılması olmuşdur. Son illər bu sahədə mühüm nailiyyətlər əldə olunmuşdur. 2001-ci il ərzində daxili valyuta bazarının ümumi həcmi 2000-ci ilə nisbətən 50 mln. $ artaraq təxminən 2 mlrd $ təşkil etmişdir.

Milli Bank alqı-satqı yolu ilə valyuta məzənnəsinə təsir göstərmişdir. 2001-ci il ərzində Milli Bankın daxili valyuta bazarındakı satışları 368,3 mln. $, valyuta alışları isə 375 mln. $ təşkil etmişdir. Həmin dövr ərzində Milli Bankın valyuta bazarına müdaxiləsi alışyönlü olmuş və 6,7 mln. $ təşkil etmişdir.

2001-ci il ərzində Milli Bankın valyuta bazarına müdaxiləsi bazarın ümumi həcminin 0,3%-ni təşkil etmişdir ki, bu da valyuta bazarının özünü tənzimləmə prinsipi ilə işləməsini göstərir.

**Milli Bankın valyuta bazarına müdaxiləsi**




Daxili valyuta bazarının aylar üzrə təhlili göstərir ki, 2001-ci ilin yanvar-may aylarında valyuta bazarının həcmi əsasən artan meylli olmuşdur.

Qeyd edildiyi kimi, hesabat ilində hüquq işinin əsas prioritet məqsədlərindən ən başlıcası olan "Azərbaycan Respublikasında banklar və bank fəaliyyəti haqqında" Qanunun yeni redaksiyada hazırlanması üzrə müvafiq işlər görülmüşdür. Bilavasitə Beynəlxəlq Valyuta Fondunun texniki yardımı ilə hazırlanan qanun layihəsi maksimum dərəcədə bank işi sahəsində beynəlxalq standartlara, xüsusilə Avropa Birliyinin müvafiq direktivlərinə əsaslanmışdır.

Layihənin əsas məqsədi ölkədə daha etibarlı, təhlükəsiz və sağlam rəqabətə dözümlü özəl bank sisteminin yaradılması və inkişafı üçün mükəmməl qanunvericilik bazasının qurulmasıdır. Belə ki, qanun layihəsində kommersiya banklarının yaradılması, fəaliyyəti, tənzimi və bank nəzarəti məsələlərində prinsipial yeniliklər nəzərdə tutulur. Nəticədə nəinki bank sisteminə yeni üzvlərin daxil olması üçün qabaqcıl

# 5. DEVELOPMENT OF BANKING LEGISLATION

*In 2001, the following measures were envisaged in the field of legal framework: preparation of the General Development Concept of legal framework for the banking system; improvement of banking and foreign exchange legislation; commencement of initial actions aimed at bringing the regulatory framework of settlement operations in conformity with international standards; expertise of the National Bank's regulatory documents; ensuring adequacy of the legal and regulatory framework for banking activities; and other legal measures.*

Development of strategic and tactical planning in the National Bank's activities gave an opportunity to detect strong and weak features of its functional operation, including main problems of legal framework, and, based on this, to determine concrete steps that can lead to well-targeted activities in this field.

To reach these objectives, the General Development Concept of Legal Framework was prepared during the reporting year, being an integral part of the General Development Concept of the Banking System. This Concept assessed the current situation with the legal framework in the field of banking activities and foreign exchange regulation, pointed out leading directions and development prospects of the legal framework, as well as determined the mechanism for implementation of the Concept. Thus, the directions of broad-scale development of the banking system's legal framework in the near future were determined.

In 2001, relevant actions were taken in the field of implementation of the Concept. Thus, relevant preparatory works were carried out on improvement of the Law "On Banks and Banking Activities in the Azerbaijan Republic", which is one of the basic legislative acts of the banking system. In addition, the issue of upgrading of the regulatory framework to a qualitatively new level in accordance with the National Bank's regulatory role in banking activities was one of the main strategic objectives of 2001. About 20 regulations and more than 30 internal regulatory documents were adopted during the year.

As we have mentioned, relevant actions were taken on revision of the Law "On Banks and Banking Activities in the Azerbaijan Republic", being on top of the main priority objectives of the legal framework in 2001. The draft law prepared through technical assistance of the International Monetary Fund was to a maximum extent based on international standards in the field of banking activities, especially relevant directives of the European Union.

The main objective of the draft law was to form a full-fledged legislative framework for creation and development of a more reliable, secured and competitive private banking system. Therefore, the draft law envisages principal innovations in the issues of establishment, operations and regulation of private banks, as well as in banking supervision. As a result, modern requirements based on advanced international expertise were defined for entry of new members into the bank-

dünya təcrübəsinə uyğun müasir tələblər, eləcə də bank sisteminin nüfuzuna xələl gətirən bankların sistemdən təkcə kreditorlar və əmanətçilər üçün deyil, ümumilikdə bank sistemi üçün ağrısız kənarlaşdırılması qaydaları müəyyənləşdirilmiş, bank nəzarəti orqanının bu proseslərdə yeri və rolu təsbit edilmişdir. Layihədə bankların müflisləşmə və iflas prosedurlarının bank biznesinin spesifik xüsusiyyətlərini nəzərə alaraq həyata keçirilməsi qaydaları öz əksini tapmışdır.

Bank qanununun önəmli yeniliklərindən biri də ölkədə fiziki şəxslərin əmanətlərinin sığortalanması sisteminin təşkili və fəaliyyəti üçün hüquqi əsasların yaradılmasıdır. Nəzərdə tutulan sığorta sxemində daha çox xırda və bankla münasibətdə maliyyə risqini qiymətləndirməyə daha az imkanı olan vətəndaşların maraqları ön plana çəkilmişdir.

2001-ci ildə “Azərbaycan Respublikasının Milli Bankı haqqında” Qanunun da işlənən layihəyə uyğunlaşdırması məqsədi ilə müvafiq hazırlıq işlərinə başlanılmışdır.

Yeni qanun layihəsinin ruhuna uyğun olaraq bank nəzarətinin beynəlxalq standartlara uyğun qurulmasını təmin etmək məqsədilə Milli Bank kredit təşkilatlarının fəaliyyətini tənzimləyən bir sıra normativ akt qəbul etmişdir. Belə ki, “Banklarda kreditlərin verilməsinin daxili prosedurları və uçotu haqqında Qaydalar”, “Bir borcalan və ya bir-biri ilə əlaqədar borcalanlar qrupu üzrə risqlərin tənzimlənməsi haqqında Qaydalar” və “Banklara aidiyyatı olan şəxslərlə əməliyyatların aparılması Qaydaları” banklarda kreditlərin verilməsi prosedurlarını müəyyən etmiş və risqlərin tənzimlənməsi işini təkmilləşdirməyi zəruri etmişdir. Bu kontekstdə banklarda kreditlərin verilməsi üzrə daxili prosedurların Milli Bankın minimum tələblərinə və metodiki göstərişlərinə uyğun qəbul edilməsi tələb kimi müəyyən edilmişdir. Belə ki, bankdaxili qaydalarda kreditlərin verilməsində bankın məsul şəxsləri arasında səlahiyyət bölgüsü, kredit sifarişlərinə baxılması qaydası, əsas kreditləşdirmə sahələrinin müəyyən edilməsi, kreditin növlərindən asılı olaraq qaytarılma müddətləri, ödəniş şərtləri, təminatının qiymətləndirilməsi və sair kreditləşdirmə prinsipi və şərtləri əks etdirilməlidir. Eyni zamanda sözügedən normativ aktlarda bankların əməliyyat risqlərinin azaldılması məqsədi ilə biri-biri ilə əlaqədar hesab olunan borcalanlara və banka aidiyyatı olan şəxslərə verilən kreditlərin prudensial normativləri və qaydaları müəyyən edilmişdir.

Banklar üzərində nəzarət işinin beynəlxalq standartlara uyğunlaşdırılması və kommersiya banklarının Milli Banka təqdim etdiyi hesabatlarda onlara məxsus əmlakın düzgün qiymətləndirilməsini və uçotunun aparılmasını təmin etmək məqsədi ilə “Ödənilməmiş borclar müqabilində banklar tərəfindən əmlakın balansa götürülməsi və qiymətləndirilməsi Qaydaları” qəbul edilmişdir.

Bankların digər hüquqi şəxslərin kapitalında iştirakı böyük risqlərlə bağlı olduğuna və itkilərlə nəticələnə bildiyinə görə belə iştirakın tənzimlənməsi məqsədi ilə “Kredit təşkilatları tərəfindən digər hüquqi şəxslərin paylarının (səhmlərinin) əldə edilməsi Qaydaları” qəbul edilmişdir. Sənəddə payların əldə olunması üçün bank qanununda nəzərdə tutulmuş məhdudiyyətlərlə yanaşı digər hüquqi şəxsin kapitalını əldə etmək üçün bankların daxili prosedurları və hesabatı barədə də müvafiq müddəalar təsbit edilmişdir.

Bank nəzarəti funksiyaları ilə yanaşı 2001-ci ildə Milli Bankın pul-kredit siyasətinin həyata keçirilməsi ilə bağlı funksiyasının səmərəli ye-

ing system, as well as the rules were created for removal of banks damaging the image of the banking system, in a manner that is painless not only for creditors and depositors, but for the banking system as whole, and the role and place of the banking supervision body was also stipulated. The draft law included the rules for carrying out insolvency and bankruptcy procedures in respect to banks, taking into account the specific features of banking business.

Creation of legal grounds for organization and operation of a deposit insurance system for individuals is one of the leading innovations of the banking law. Envisaged insurance scheme puts on the first place the interests of citizens with small deposits who have low capacity to evaluate financial risk of client-bank relations.

In 2001, relevant preparatory works have been commenced to bring the Law "On the National Bank of the Azerbaijan Republic" in conformity with the draft under development.

In order to ensure development of banking supervision in accordance with international standards, in line with the spirit of the new law draft, the National Bank adopted a number of regulatory acts that regulate operations of credit institutions. Thus, the Rules "On internal procedures and record-keeping of lending at banks", "On regulation of risks for one borrower or a group of interrelated borrowers", and "On carrying out operations with bank-related persons" have determined the procedures for lending by banks, and made it necessary to improve the risk regulating activities. In this context, a requirement was set for banks to adopt internal lending procedures in compliance with minimum requirements and methodical instructions of the National Bank. Thus, banks' internal regulations have to cover distribution of powers among bank officers in regard to lending, procedures for examination of credit application, determination of main areas for lending, evaluation of maturity, terms or repayment and collateral depending of the type of credit, as well as other lending principles and conditions. In addition, for the purpose of minimization of banks' operational risks, the abovementioned regulatory acts identified rules and prudential standards for loans given to a group of borrowers that are considered to be interrelated, as well as to persons who have relations with the lending bank.

The Rules "On seizure and evaluation of property by banks against unpaid debts" were adopted to bring banking supervision operations in conformity with international standards, and to ensure that reports presented by commercial banks to the National Bank include accurate evaluation and record-keeping of the property, which belongs to those commercial banks.

As participation of banks in the share capital of other legal entities is related to high risks and may result in losses, the Rules "On acquisition of shares of legal entities by credit institutions" were adopted for the purpose of regulation of such participation. Along with restrictions for acquisition of shares as provided in the banking law, this document also stipulated relevant provisions for banks' reporting and internal procedures for acquisition of share capital of other legal entities.

A very important regulatory act – the Rules "On required reserves of banks" – were adopted in 2001, for the purpose of efficient implementation of the National Bank's monetary policy function along with banking supervision function. These Rules established a mechanism for using required reserves to ensure liquidity of banks and to regulate liquidity of the banking system. The Rules also included procedures for calculation of

rinə yetirilməsi ilə əlaqədar olan çox vacib bir normativ akt - "Bankların məcburi ehtiyatları haqqında Qaydalar" qəbul edilmişdir. Bu sənəddə məcburi ehtiyatların bankların likvidliyinin təmin edilməsində və bank sisteminin likvidliyinin tənzimlənməsində istifadə edilməsi mexanizmi müəyyən edilmişdir. Qaydalarda həmçinin məcburi ehtiyatların hesablanması qaydaları, onların saxlanılması üzrə nəzarət tədbirləri və digər məsələlər təsbit edilmişdir.

Milli ödəniş sisteminin islahat strategiyası çərçivəsində 2001-ci ildə "Azərbaycan Respublikasında fəaliyyət göstərən kredit təşkilatları arasında hesablaşmaların təşkili Qaydaları" qəbul edilmişdir. Bu sənəd milli ödəniş sisteminin müasir standartlar və texnologiyalara uyğunlaşdırması istiqamətində çox mühüm addım olmuşdur. Həmin normativ akta əsasən yeni Mülki Məcəllə ilə nəzərdə tutulan hesablaşmaların elektron şəkildə həyata keçirilməsi Ümumdünya Banklararası Maliyyə Telekommunikasiya sisteminin (S.W.I.F.T.) tərkib hissəsi olan Real Vaxt Rejimində Banklararası Milli Hesablaşmalar Sistemi (AZIPS) çərçivəsində mümkün olmuşdur. Sənəddə həm kağız, həm də elektron daşıyıcılar vasitəsi ilə banklararası hesablaşmaların, habelə zonadaxili ödənişlərin təşkili qaydası təsbit edilmişdir. Normativ akta görə AZIPS-in üzvü olmayan, yəni autsayder banklar da Milli Bankın vasitəsi ilə real vaxt rejimində elektron hesablaşmaları aparmaq imkanını əldə edirlər.

Bank sistemində beynəlxalq mühasibat standartlarına keçidlə əlaqədar olaraq 2001-ci ildə bu sahədə normativ baza daha da inkişaf etmiş, uçot qaydaları ilə bağlı Milli Bank tərəfindən bir sıra normativ akt qəbul edilmişdir. Bunlar banklarda qeyri-maddi aktivlərin, əmanətlərin (depozitlərin), xarici valyuta əməliyyatların və digər bank əməliyyatlarının uçot qaydalarını müəyyən etmişdir.

Hesabat ili valyuta qanunvericiliyi sahəsində də yeniliklərlə müşahidə olunmuşdur. Belə ki, "Valyuta tənzimi haqqında" Azərbaycan Respublikası Qanununa da bəzi əlavə və dəyişikliklər edilmişdir. İlk növbədə qeyd etmək lazımdır ki, həmin düzəlişlərdə Milli Bank dövlətin valyuta siyasətinin həyata keçirilməsi üzrə funksiyalarına uyğun olaraq ölkədə əsas valyuta nəzarəti orqanı kimi müəyyənləşdirilmişdir. Eyni zamanda fiziki şəxslər tərəfindən valyuta sərvətlərinin Azərbaycan Respublikasına gətirilməsi (köçürülməsi) və Azərbaycan Respublikasından çıxarılması (köçürülməsi) proseduru da həmin düzəlişlərdə öz əksini tapmışdır. Həmin prosedurların icrasını təmin etmək məqsədilə Milli Bank tərəfindən müvafiq Qaydalar da işlənib hazırlanmışdır. Qanunda təsbit edilən yeniliklərlə əlaqədar Milli Bank həmçinin mövcud valyuta rejimi qaydalarını tənzimləyən normativ aktın da təkmilləşdirilməsi sahəsində işlər aparır.

Valyuta qanunvericiliyinin təkmilləşdirilməsi istiqamətində 2001-ildə Milli Bankın həyata keçirdiyi normayaradıcılıq işlərindən biri də "Azərbaycan Respublikası müvəkkil banklarının açıq valyuta mövqeyi limitlərinin müəyyən edilməsi və tənzimlənməsi Qaydaları"nın yeni redaksiyada qəbulu olmuşdur. Bu sənədə əsasən hazırda bankların valyuta mövqeyinin hesablanmasında balans maddələri ilə yanaşı balansdankənar tələbləri və öhdəlikləri iştirak edir. Valyuta məzənnə risqi yalnız səhmdar kapitala deyil, prudensial kapitala nisbətdə müəyyən edilir, habelə beynəlxalq aləmdə tətbiq olunmağa başlamış struktur valyuta anlayışı verilmiş və tətbiqinə başlanmışdır.

Hesabat ilində "Azərbaycan Respublikasının

required reserves, supervisory measures on storage of required reserves, and other issues.

The Rules "On arrangement of settlements between credit institutions operating in the Azerbaijan Republic" were adopted in 2001 within the framework of reform strategy for the national payment system. This document became a very significant step towards upgrading of the national payment system in conformity with modern standards and technologies. Being an integral part of the System of Worldwide Financial Telecommunications (S.W.I.F.T), the Real Time Inter-Bank National Settlement System (AZIPS) made possible the implementation of settlements, which are envisaged by the new Civil Code, in an electronic format, as provided in the Rules. The Rules defined procedures for arrangement of inter-bank settlements, as well as intra-zone payments, by using both paper- and electronic transmission devices. According to these Rules, banks that are not members of AZIPS, i.e. outsider banks, also get an opportunity to carry out real time electronic settlements through the National Bank.

Due to the shift to international accounting standards in the banking system, the regulatory framework in this field was further enhanced in 2001, and the National Bank adopted a number of regulatory acts in relation to accounting procedures. Those regulatory acts established accounting procedures for intangible assets, savings (deposits), foreign exchange transactions and other banking operations.

During the reporting year, innovations were also introduced to foreign exchange legislation. Thus, certain changes and additions were made to the Law of the Azerbaijan Republic "On Foreign Exchange Regulation". First of all, it should be noted that, based on the those changes, the National Bank was defined as the main foreign exchange supervision body in the country, in accordance with its functions related to implementation of the state’s foreign exchange policy. The changes made to the law also included the procedures for bringing (transfer) foreign exchange into the Azerbaijan Republic, and taking (transfer) foreign exchange out of the Azerbaijan Republic by individuals. The National Bank also prepared relevant regulations in order to ensure execution of these procedures. In connection with innovations stipulated in the law, the National Bank is also undertaking actions in the field of improvement of the regulatory act, which regulates procedures of existing foreign exchange regime.

Adoption of the revised Rules "On establishment and regulation of limits for open foreign exchange positions of authorized banks of the Azerbaijan Republic" was also one of the regulatory drafting measures carried out by the National Bank in the field of improvement of foreign exchange legislation. According to the document, off-balance-sheet claims and liabilities also participate in calculation of banks’ foreign exchange positions, along with balance-sheet items. Exchange rate risk is determined in relation to prudential capital, rather than only to equity capital, and the definition of structural foreign exchange, the application of which began in the international community, has been applied as well.

During the reporting year, based on the Presidential Decree "On Implementation of the Law on the State Budget of the Azerbaijan Republic for 2002", the National Bank prepared proposals on improvement of circulation of money, limitation of use of cash in settlement operations between economic agents, as well as

2002-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanına müvafiq olaraq Milli Bank pul dövriyyəsinin yaxşılışdırılması, iqtisadi agentlər arasında hesablaşmalarda nağd puldan istifadənin məhdudlaşdırılması, habelə iqtisadiyyatın dollarlaşmasının qarşısının alınması üzrə təkliflər hazırlamışdır.

Banklarda emissiya-kassa əməliyyatlarının yaxşılaşdırılması, bu əməliyyatların təhlükəsizliyinin artırılması və müasir sistemlər vasitəsi ilə aparılmasını yaxın gələcəkdə təmin edən normativ bazanın yaradılması üzərində müvafiq layihə işləri aparılmışdır.

Milli Bank öz normayaradıcılıq işlərində həmişə olduğu kimi 2001-ci ildə də infrastruktur qanunvericiliyinin təkmilləşdirilməsi proseslərində də iştirak etmişdir. Bankların girovla bağlı əməliyyatlarını (ipoteka) tərəflər üçün daha əlverişli əsaslar üzrə həyata keçirilməsi təmin olunmuşdur. Belə ki, "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikası Qanununda bu əməliyyatlar üzrə aparılan notariat hərəkətlərinə görə dövlət rüsumu kreditin məbləğindən asılı olaraq nisbətən az məbləğdə müəyyən edilmişdir. Həmin yenilik həmçinin ölkənin maliyyə bazarında mikromaliyyələşmə sxemlərinin qurulduğu bir dövrə təsadüf etmiş və bu işin respublikada səmərəli inkişafına, kiçik və orta sahibkarlıq subyektlərinin bank kreditlərindən istifadə imkanlarını artırmağa şərait yaratmışdır.

on prevention of dollarization of the national economy.

Relevant drafting works were carried out to create a regulatory framework that will ensure improvement of cash issue operations at banks, enhancement of security, and use of modern systems for carrying out such operations.

As for its regulatory drafting activities, in 2001, same as previously, the National Bank took part in the process of improvement of infrastructure legislation. It was ensured that mortgage-related banking operations are carried out on conditions that are more favorable for parties. For instance, the Law of the Azerbaijan Republic "On State Fees" established relatively low state fees for notary services to be provided to mortgage-related operations, depending on the amount of loan. This innovation coincided with the period of establishment of micro-credit schemes in the country's financial market, and it created grounds for effective development of this undertaking in the country, and enhancement of capability of small and medium businesses to use bank loans.

# 6. İNSAN RESURSLARININ İNKİŞAFI

*2001-ci ildə insan resurslarının idarə olunması sahəsində Milli Bank qarşısında kadr resurslarının axtarılması və işə götürülməsi metodologiyasının yaradılması, bank fəaliyyətinin bütün funksional istiqamətləri üzrə kadrların peşə təhsilinə olan tələbatının planlaşdırılması, onların hərəkətinin və karyerasının planlaşdırılması, kadr resurslarının peşə uyğunluğu və ixtisas səviyyəsi üzrə qiymətləndirilməsinin metodoloji bazasının yaradılması kimi mühüm vəzifələr qoyulmuşdur.*

Qarşıda duran vəzifələrin icrasını təmin etmək üçün Milli Bank öz kadr siyasətini nəzərdən keçirərək hərtərəfli təhlil etmiş, kadr potensialının möhkəmləndirilməsinə və aparatın komplektləşdirilməsinə yönəldilmiş tədbirlər sistemi işləyib hazırlamışdır.

2001-ci il yanvarın 1-nə olan vəziyyətə görə Milli Bankın təşkilati strukturuna 18 bölmədən ibarət Mərkəzi aparat, Naxçıvan Muxtar Respublikası idarəsi və 10 ərazi idarəsi daxildir. Bu struktur xarici ölkələrin mərkəzi banklarının təcrübəsinə və beynəlxalq praktikaya əsaslanaraq formalaşdırılmışdır və bütövlükdə, Milli Bankın qarşısında duran vəzifə və funksiyaların effektiv yerinə yetirilməsinə imkan verir.

İlin yekununa görə Milli Bankın və onun tabeliyindəki təşkilatların bütün kateqoriyalardan olan işçilərinin siyahı üzrə sayı 504 nəfər (ştata görə 551 vahid), o cümlədən Mərkəzi aparatda 339 nəfər təşkil etmişdir.

2001-ci ildə kadrlar işi üzrə fəaliyyətin əsas istiqamətləri Milli Bankın kollektivini peşəkar mütəxəssislərlə komplektləşdirməkdən, işçilərin ixtisas dərəcəsini artırmaqdan, optimal əmək şəraiti yaratmaqdan ibarət olmuşdur. Görülən işlər aparatın komplektləşdirməsi göstəricilərinin yaxşılaşmasına şərait yaratmışdır. 2001-ci ildə 33 əməkdaş, o cümlədən Mərkəzi aparatda 24 əməkdaş işə götürülmüşdür.

Əsas fəaliyyət üzrə 431 nəfər işçidən (kiçik xidmət işçiləri nəzərə alınmadan) 360 nəfəri mütəxəssisdir. Bunlardan 265 nəfər ali təhsillidir, 95 nəfəri orta ixtisas təhsilli mütəxəssisdir. Ali və orta təhsilli mütəxəssislər işləməli olan 334 vəzifədə 313 mütəxəssis çalışır ki, bu da 93,7 faiz təşkil edir.

2001-ci il ərzində Milli Bankdan kadr axınının səviyyəsi minimuma endirilmişdir. Ümumiyyətlə, 1996-cı illə müqaiysədə bu gün kadr axını 22%-dən 6%-ə enmişdir, bu da işəgötürmə za-

| Tədrisin istiqamətləri | İştirakçıların sayı, (nəfərlə) |
|---|---|
| Bank tədris mərkəzi | 87 |
| Xarici ölkələrdə təhsil | 51 |
| İngilis dili kursları | 97 |
| Kompüter kursları | 18 |
| Dövlət İqtisad Universitetində ikinci təhsil | 28 |

# 6. HUMAN RESOURCES DEVELOPMENT

*In 2001, the National Bank's main tasks in the field of human resource management were creation of methodology for search and recruitment of staff, planning of staff's needs for professional training in all functional areas of banking activity, planning of staff turnover and career development, and creation of methodological framework for evaluation of staff by professional fitness and qualification level.*

To ensure execution of the tasks set, the National Bank carried out revision and comprehensive analysis of its human resources policy, and worked out a system of measures aimed at strengthening of human resources potential and staffing of its office.

As of January 1, 2001, the National Bank's organizational structure comprised Head Office consisting of 18 divisions, Department in the Nakhchivan Autonomous Republic, and 10 zonal departments. This structure was formed based on experience of central banks of foreign states and international practice, and it generally allows for effective fulfillment of functions and responsibilities faced by the National Bank.

As of the end of 2001, the number of employees of all categories included in the payroll of the National Bank and of its subordinated institutions was 504 (551 according to the staff size), including 339 in the Head Office.

In 2001, main areas of activities in the field of human resources management comprised staffing of the National Bank with professional specialists, upgrading the level of qualification of its employees, and creation of optimal working conditions. The measures taken have created conditions for improvement of staffing indicators of the National Bank. 33 employees, including 24 employees in the Head Office, were recruited in 2001.

Out of 431 employees engaged in main operations (excluding lower level support staff), 360 are specialists. 265 of those specialists have degree of higher education, while other 95 completed secondary special education. Out of 334 positions that require specialists with higher and secondary education, 313 positions were staffed with relevant specialists, which is 93.7%.

During 2001, the level of outflow of staff from the National Bank dropped to a minimum. In total, today's outflow of staff fell to 6% from 22% in 1996, and this can be explained by professional

| Type of Training | Number of attendants |
|---|---|
| Banking training center | 87 |
| Education in foreign countries | 51 |
| English courses | 97 |
| Computer courses | 18 |
| Second education at the State Economic University | 28 |

manı professional seçim və bankda motivasiya sisteminin tətbiqi ilə izah oluna bilər.

2001-ci ildə Milli Bank kadr təminatı və təhsil sisteminin təkmilləşdirilməsi sahəsində əsaslı nailiyyətlər əldə etmişdir. Belə ki, bu dövrdə Milli Bankın mütəxəssislərinin beynəlxalq və yerli bank tədris mərkəzlərində təkmilləşmələrinə geniş imkanlar yaradılmışdır.

Əməkdaşların professionallığını artırmaq üçün xüsusi kurslar təşkil edilmişdir.

Ölkə iqtisadiyyatının bütün sferalarında olduğu kimi, bank işində də bazar münasibətlərinə keçidlə bağlı olaraq bank işçilərinin peşə səviyyəsinin yeni tələblər səviyyəsinə qaldırılması əsas vəzifələrdən biridir. Bazar iqtisadiyyatı şəraitində bank işinin tənzimlənməsini surətləndirmək məqsədilə Beynəlxalq Valyuta Fondu və Dünya Bankı kimi beynəlxalq maliyyə təşkilatlarının, Amerika Birləşmiş Ştatları, İngiltərə, Almaniya, İsveçrə, Türkiyə, Fransa, Avstriya, Yaponiya, Rusiya və başqa ölkələrin mərkəzi banklarının və aparıcı kommersiya banklarının iş təcrübəsinin öyrənilməsi üçün Milli Bankın mütəxəssisləri 1995-2001-ci illərdə xarici ölkələrdə keçirilən 170 müxtəlif elmi-nəzəri və praktik seminarlarda iştirak etmişdir.

Milli Bankda kadrların seçilməsi çoxpilləli müsahibə sistemi üzrə həyata keçirilir. Bu zaman namizədlərin ixtisas səviyyəsi ilə yanaşı həm də düşünmə, problemləri həll etmə və qərar vermə bacarığı, ünsiyyətliliyi, kollektivə uyuşma qabiliyyəti, məsuliyyəti, intizamı və Milli Bankın əməkdaşları üçün mühüm sayılan digər keyfiyyətləri yoxlanılır və qiymətləndirilir. Bu məqsədlə xüsusi testlər tətbiq edilir.

Milli Bank 2001-2004-cü illər üçün strateji planına əsaslanaraq kadr siyasəti sahəsində əhəmiyyətli dəyişikliklərin həyata keçirilməsini nəzərdə tutur. Belə ki, "Xidməti Fəaliyyətin Qiymətləndirilməsi Sistemi"nin bankda tətbiqi beynəlxalq standartlara daha da yaxınlaşmağa şərait yaradacaqdır. "Qiymətləndirmə"nin məqsədi əməkdaşların xidməti fəaliyyətini nəticəyə görə qiymətləndirmək, onların güclü və zəif cəhətlərini, potensialını, tədris ehtiyaclarını, bankın fəaliyyətində xidmət və göstəricilərini tam təhlil edib aydınlaşdırmaq və hər bir əməkdaşı xidməti fəaliyyətinə görə mükafatlandırmaqdan ibarətdir.

Bundan başqa, kadr siyasətində tətbiq olunacaq digər istiqamətlərdən biri də təkmilləşdirilmiş "İşə götürmə" Qaydalarıdır. Bu Qaydalar işə götürmə zamanı müsahibələrin bütün professionallara yaxşı tanış olan A.Rocerin 7 bəndlik planı üzrə keçirilməsini nəzərdə tutur.

selection at the time of recruitment, and application of the system of staff incentives at the National Bank.

In 2001, the National Bank made significant achievements in the field of improvement of educational system and compensation of staff. Thus, broad opportunities were created for upgrading of skills of the National Bank's experts at international and local banking training centers. Special courses were organized to improve professionalism of employees.

As in all other sectors of the national economy, upgrading of professional level of the bank's staff in conformity with new requirements became one of the main tasks due to transition of banking activities to market relations. In order to accelerate regulation of banking activities under market economy conditions, specialists of the National Bank have participated in 170 various scientific and practical seminars held in foreign countries during 1995-2001, for the purpose of studying working experience of international financial institutions such as the International Monetary Fund and the World Bank, as well that of central banks and leading commercial banks in the USA, Great Britain, Germany, Switzerland, Turkey, France, Austria, Japan, Russia and other countries.

Selection of staff at the National Bank is carried out through multistage interview system. Logical thinking, problem-solving and decision-making capacities, sociability, ability of adaptation to staff, responsibility, discipline, and other quality features, which are considered important for employee of the National Bank, are evaluated along with qualification skills of applicants during this selection process. Special tests are used for this purpose.

The National Bank intends to implement significant changes in the field of human resources policy, based on the strategic plan for 2001-2004. Thus, application of performance evaluation system will create conditions for further upgrade to international standards. Objective of this "evaluation" is to assess performance of employees based on results, to thoroughly analyze and clarify their strong and weak points, capacities, training needs, contributions to the bank's operations, and to remunerate each employee in accordance with their performance.

In addition, revised Rules "On Recruitment" is another measure to be applied in human resource policy. These Rules envisage implementation of interviews at the time of recruitment in accordance with 7-item plan by A. Roger that is very well known among professionals.

# 7. MİLLİ BANK ÜZRƏ STRATEJİ PLANLAŞDIRMANIN BİRİNCİ İLİNİN YEKUNLARI

*2001-ci ildə Milli Bank öz fəaliyyətini strateji planlaşdırma əsasında qurmuş və 2001-2004-cü illər üzrə Milli Bankın bütün struktur bölmələrini və fəaliyyət sferalarını əhatə edən Strateji Plan çərçivəsində həyata keçirmişdir*.

Strateji planlaşdırma hazırki şəraitdə Milli Bankın missiyasını daha aydın müəyyənləşdirməyə və yaxın beş ildə onun prioritet inkişaf məqsədlərini dəqiq müəyyənləşdirməyə imkan vermişdir.

Strateji plana, ümumi məqsədlər toplusuna uyğun olaraq Milli Bankın korporativ idarəetmə sisteminin müasir tələblərinə cavab verən yeni strukturu və idarəetmə prosedurları yaradılmışdır.

Milli Bankın maddi texniki təminatının təkmilləşdirilməsindən başlayaraq, insan resurslarının müasir idarəetmə sisteminin yaradılmasına, müasir daxili korporativ mədəniyyətin tətbiqinə kimi məqsədlər strateji planda nəzərdə tutulub və taktiki planlaşdırma vasitəsilə artıq realizə olunur.

Eyni zamanda monetar idarəetmənin təkmilləşdirilməsi və standartlaşması, bank nəzarətinin beynəlxalq standartlaşması, bank strategiyasında nəzərdə tutulmuş işlərin həyata keçirilməsi Milli Bankın əsas strateji məqsədlərindəndir.

Strateji planda aparıcı ölkələrin mərkəzi banklarının iş təcrübələrini dərindən öyrənməklə Milli Bankı daha çevik və müasir, avropa standartlarında tənzimləmə orqanına çevirmək, habelə onun məqsədlərinin reallaşdırılmasının effektivliyini yüksəltmək proqramı müəyyənləşdirilmişdir.

Bu proqramın hazırlanmasında bir çox qabaqcıl ölkələrin mərkəzi banklarının təcrübəsinin öyrənilməsi ilə yanaşı menecmentin əsasları üzrə toplanmış elmi-praktiki təcrübədən də istifadə edilmişdir. Proqramda mərkəzi yer fövqəladə iqtisadi vəziyyətlərdə antiböhran idarəetmə modullarının hazırlanmasına verilmişdir. Burada Milli Bankı əhatə edən xarici mühitin və onun daxili mühitinin elementləri və amilləri göstərilmişdir. Proqram ölkədə artıq bir neçə ildən bəri bərqərar olmuş makroiqtisadi sabitliyin daha da dayanıqlı olmasına, bank sisteminin iqtisadiyyatın inkişafındakı rolunun yüksəldilməsinə yönəldilmişdir.

Proqramla pul-kredit və valyuta siyasətinin ölkədə yeridilən makroiqtisadi siyasətin digər strateji istiqamətləri ilə daha səmərəli əlaqələndirilməsi nəzərdə tutulmuşdur. Bu məqsədlə respublikanın müxtəlif tənzimləyici orqanları ilə konkret qarşılıqlı fəaliyyət sxemləri nəzərdən keçirilmişdir.

Bank nəzarəti normalarının bank nəzarəti üzrə Bazel Komitəsinin standartlarına və mütərəqqi beynəlxalq təcrübəyə uyğunlaşdırılması, mühasibat uçotu sisteminin, bank qanunvericiliyinin dünya standartlarına uyğunlaşdırılması, elektron-ödəniş sisteminin tətbiqi, insan resurslarının inkişafı və sair bank işi üçün strateji əhəmiyyət daşıyan tədbirlər sənəddə öz əksini tapmışdır. Bank işinin inkişafı üzrə xüsusi proqramın hazırlanması da ilk dəfə məhz Milli Bankın Strateji Planında nəzərdə tutulmuşdur. Strateji plana uyğun olaraq Milli Bankda idarəetmənin səmərəliliyini artırmaq, qərarların qə-

# 7. RESULTS OF THE FIRST YEAR OF STRATEGIC PLANNING AT THE NATIONAL BANK

*In 2001, the National Bank established and implemented its own operations based on strategic planning, within the framework of the Strategic Plan, which covers all structural divisions and areas of activities of the National Bank for the period of 2001-2004.*

Strategic planning allowed for more specific determination of the National Bank's mission under current conditions, and for precise identification of its priority development objectives for the next five years.

Based on the strategic plan and summary of general objectives, new structure and management procedures of the National Bank were created in conformity with modern requirements of corporate management system.

Objectives, such as improvement of the National Bank's logistics, creation of modern system of human resources management, and application of modern internal corporate culture, were envisaged in the strategic plan and are now in the process of implementation though tactical planning.

In addition, improvement and standardization of monetary management, standardization of banking supervision in conformity with international practice, and implementation of actions envisaged in the bank's strategy are also among main strategic objectives of the National Bank.

The strategic plan defined the program to transform the National Bank into modern and prompt regulatory body based on European standards, through in-depth study of working experience of central banks in leading countries, as well as to improve effectiveness of implementation of its objectives.

Gained scientific and practical expertise on fundamentals of management was also used in preparation of this program, along with studying the experience of central banks of many leading countries. Preparation of anti-crisis management modules for emergency economic situations was given a central place in the program. The program showed the elements and factors of external environment surrounding the National Bank, as well as those of its internal environment. The program was aimed at increasing the sustainability of macroeconomic stability, which has been achieved in the country for already several years, and enhancing the role of the banking system in development of the national economy.

The program envisaged a more effective coordination of monetary and foreign exchange policies with other strategic areas of macroeconomic policy conducted in the country. For this purpose, concrete schemes of joint operations with various regulating bodies of the country were reviewed.

The document also included adjustment of banking supervision norms in conformity with standards of the Basle Committee and advanced international expertise, bringing accounting system and banking legislation in conformity with world standards, application of electronic payment system, human resources development, and other measures of strategic significance for banking activity. Preparation of a special program on

bulu üçün informasiya bazasını genişləndirmək məqsədilə Milli Bankın ayrı-ayrı bölmələri arasında, eləcə də Milli Bankla banklar arasındakı informasiya axınlarının avtomatlaşdırılması istiqamətində 2001-ci ildə ardıcıl işlər aparılmışdır.

*Strateji planlaşdırmanın tətbiqinin 1 illik yekunları bütövlükdə çox mühüm müsbət nəticələrin əldə olunmasını göstərir*. Bu ilk növbədə bankın kollektivin işinə güclü səfərbəredici təsirində öz əksini tampışdır. Digər tərəfdən il üzrə müəyyən olunmuş məqsədlərin yerinə yetirilməsi növbəti il üçün yeni və daha iddialı vəzifələrin yerinə yetirilməsinə zəmin yaratmışdır. Çünki 2001-ci il üzrə qoyulmuş vəzifələrin uğurlu həlli məntiqi olaraq artıq bir neçə sayda yeni vəzifələrin həll olunması zərurətini ortaya çıxarmışdır. Milli Bank üçün strateji planlaşdırma sisteminin səmərəsi 2001-ci ildə onun məhz bu xüsusiyyəti ilə səciyyəvi olmuşdur.

development of banking business was for the first time envisaged in the National Bank's Strategic Plan. Based on the strategic plan, consistent actions were taken in 2001 in the field of automatization of information flows between certain divisions of the National Bank, as well as between the National Bank and other banks, for the purpose of increased efficiency of management at the National Bank, and enhancement of database for decision-making.

*Results of the first year of application of strategic planning generally show that very important positive results have been attained*. This was first of all reflected in a strong mobilizing influence on the work of the bank's staff. On another hand, fulfillment of objectives set for the year created a ground for fulfillment of new and more ambitious tasks for the next year, because successful solution of tasks set for 2001 has already revealed the necessity to deal with several new tasks. This feature alone characterized the efficiency of the system of strategic planning for the National Bank in 2001.

# 8. MİLLİ BANKIN BEYNƏLXALQ ƏLAQƏLƏRİ

### 8.1 Beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq

*Milli Bankın beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığının genişləndirilməsi, bank əməliyyatlarının avtomatlaşdırılması və modernizasiyası məqsədilə beynəlxalq maliyyə institutlarından və digər donor təşkilatlardan texniki yardımın cəlb edilməsi 2001-ci ildə mühüm vəzifələr sırasında olmuşdur.*

**Beynəlxalq Valyuta Fondu** bank sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması, baş mühasibat kitabının tətbiq edilməsi, bank nəzarətinin möhkəmləndirilməsi, yeni bank qanunvericiliyi layihələrinin hazırlanması, xırda ödənişlər sisteminin dizaynının və lazımi infrastrukturun hazırlanması sahəsində nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində Milli Banka yardım etmişdir. Fondun məsləhətçiləri bu işlərin həyata keçirilməsində, eləcə də bankın mütəxəssisləri ilə treyninqlərin keçirilməsində bilavasitə iştirak etmişlər.

Beynəlxalq Valyuta Fondu ölkədə maliyyə sabitliyinin möhkəmləndirilməsinə yönəldilmiş məlum tədbirlərlə yanaşı yoxsulluğun azaldılması və inkişafa kömək göstərilməsi üçün (PRĞF) Azərbaycan dövlətinə 100 mln. dollar məbləğində kredit ayırmış və bunun ilk tranşı artıq alınmışdır.

**Ümumdünya Bankı** Maliyyə Sektoruna Texniki Yardıma dair kredit sazişinin hazırlanmasına yönəldilmiş tədbirlərin həyata keçirilməsində iştirak etmişdir. Sazişin başlıca komponenti olan Azərbaycan Milli Bankına texniki yardımın göstərilməsindən ibarətdir. Bu iş artıq başa çatdırılmışdır. Proqramın həyata keçirilməsi Milli Banka 3,4 mln. dollar məbləğində maliyyə yardımı alınmasına imkan verəcəkdir ki, bu da əsasən Xırda (paket) ödənişlər sisteminin yaradılmasına yönəldiləcəkdir.

Ümumdünya Bankının kredit portfeli Azərbaycan iqtisadiyyatının bütün sahələrində bu təşkilatın hərtərəfli iştirakına imkan yaradır. Bu, neft sektoru, su və qaz təchizatı sisteminin bərpası, kolxozların özəlləşdirilməsi və kənd təsərrüfatı inkişafının maliyyələşdirilməsi, irriqasiya və drenaj sisteminin, mədəni irsin bərpası, institusional quruculuğa texniki yardım göstərilməsini nəzərdə tutur. Bu çərçivədə Milli Banka yeni ödəniş sisteminin - ümumi ödənişlər sisteminin birinci növbəsinin işə salınması üçün 2,6 mln. dollar vəsait ayrılmışdır.

Bankın fəaliyyətinin digər mühüm istiqaməti donor banklarla - Asiya İnkişaf Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı ilə və digər banklarla əməkdaşlığın inkişaf etdirilməsi və əlaqələrin möhkəmləndirilməsi olmuşdur.

İl ərzində **Asiya İnkişaf Bankının** ölkə üzrə siyasətinin və Azərbaycanda onun fəaliyyət proqramının hazırlanması sahəsində fəal məsləhətləşmələr prosesi getmişdir. Asiya İnkişaf Bankı bank sektorunun inkişaf proqramının həyata keçirilməsi sahəsində Milli Banka texniki yardım göstərilməsinə maraq göstərmişdir.

**Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB)** ilə birgə fəaliyyət Azərbaycanda Mikrokreditləşdirmə Bankının təsis edilməsi, habelə Azərbaycan Beynəlxalq Bankının özəlləşdi-

# 8. INTERNATIONAL RELATIONS OF THE NATIONAL BANK

### 8.1. Cooperation with international financial and credit institutions

*Expansion of cooperation between the National Bank and international financial institutions, and attraction of technical assistance from international financial institutions and other donor organizations, for the purpose of automatization and modernization of banking operations, were among major tasks in 2001.*

**International Monetary Fund (IMF)**. The IMF assisted the National Bank in implementation of measures aimed at bringing the banking system in conformity with international standards, strengthening of banking supervision, drafting of new banking legislation, and developing of design and necessary infrastructure for the low value payments system. Fund experts took direct participation in implementation of these works, as well as in holding of training for the National Bank's specialists.

Along with well-known programs aimed at strengthening of financial stability in the country, the IMF allocated $100 million loan to the Government of Azerbaijan under the Poverty Reduction and Growth Facility (PGRF), and first tranche of this loan has already been disbursed.

**World Bank (WB)**. The WB took part in implementation of measures aimed at preparation of credit agreement on Technical Assistance to Financial Sector. Main component of this agreement consists of provision of technical assistance to the National Bank of Azerbaijan. This work has already been completed. Program implementation will allow the National Bank to get financial assistance for the amount of $3.4 million, and this money will be mainly spent on creation of low value payments system.

Credit portfolio of the WB allows for comprehensive participation of this institution in all sectors of Azerbaijan's economy. This includes oil sector, rehabilitation of water and gas supply systems, privatization of kolkhozes and financing of agricultural development, rehabilitation of irrigation and drainage systems, restoration of cultural heritage, and technical assistance to institutional building. Within the framework of this cooperation, $2.6 million was provided to the National Bank for launch of the new payment system as a first stage of a general payment system.

Another important area of the National Bank's activities was development of cooperation and strengthening of relations with donor banks – Asian Development Bank, European Bank for Reconstruction and Development and other banks.

**Asian Development Bank (ADB).** During the year, active consultations have been held in respect to formulation of the ADB's policy and activity program for Azerbaijan. The ADB expressed its interest in providing technical assistance to the National Bank for implementation of banking sector development program.

**European Bank for Reconstruction and Development (EBRD).** Cooperation between the National Bank and the EBRD was focused on establishment of Micro-Credit Bank in Azerbaijan,

rilməsində AYİB-in iştirakı layihəsinin hazırlanması və həyata keçirilməsi üzərində cəmləşmişdir. Mikrokreditləşdirmə Bankının yaradılması Azərbaycanda kiçik və orta biznesin təşəkkülü prosesinin gücləndirilməsi məqsədlərinə xidmət edəcək və rəqabət mühitinin yaxşılaşmasına kömək göstərəcəkdir.

Bütövlükdə, AYİB Azərbaycan iqtisadiyyatına 400 mln. dollardan çox vəsait qoymuşdur. Qeyd etmək lazımdır ki, AYİB-in ölkədə fəaliyyətində özəl sektorun inkişafına üstünlük verilir.

AYİB girov haqqında qanunvericiliyin təkmilləşdirilməsi və qüvvədə olan qanunvericilik aktlarının qiymətləndirilməsinə və mövcud ziddiyyətlərin aradan qaldırılması barədə tövsiyyələr hazırlanmasına Avropanın görkəmli mütəxəssislərinin cəlb edilməsi sahəsində Milli Banka texniki yardım göstərilməsinə razılıq vermişdir.

## 8.2 Xarici ölkələrin mərkəzi bankları ilə əməkdaşlıq

Bank islahatlarının səmərəli surətdə həyata keçirilməsi üçün əlavə texniki yardımın alınması, Milli Bankın imicinin möhkəmləndirilməsi, uzaq və yaxın xarici ölkələrin mərkəzi bankları arasında onun nüfuzunun yüksəldilməsi məqsədilə 2001-ci ildə Milli Bankın beynəlxalq əlaqələrinin genişləndirilməsi sahəsində məqsədyönlü iş aparılmışdır.

Ötən il Almaniya Bundesbankı ilə, İsveçrə Milli Bankı ilə, Türkiyə Mərkəzi Bankı ilə və MDB ölkələrinin bir sıra mərkəzi bankları ilə sıx əlaqələr yaradılması sahəsində tədbirlər xüsusi yer tutmuşdur. Mərkəzi banklarla münasibətlərin yaradılması və inkişaf etdirilməsi qabaqcıl iş təcrübəsi ilə tanış olmağa, müasir texnologiyanı öyrənməyə və toplanmış biliklərin təcrübədə tətbiqinin növbəti mərhələsini həyata keçirməyə imkan vermişdir.

Avropanın aparıcı bankları ilə bilavasitə əlaqələr yaradılması Milli Bankın fəaliyyətində yeni istiqamət olmuşdur. Almaniya Bundesbankı ilə sıx qarşılıqlı fəaliyyət və yaradılmış əlaqələr bankda bir sıra xüsusi seminarların təşkil olunmasına imkan vermişdir. Bu bankın yüksək ixtisaslı mütəxəssisləri Milli Banka daxili auditin təşkili sahəsində texniki yardım göstərmişlər.

